Ərəb mətbuatı: Prezident İlham Əliyev siyasi, hərbi və iqtisadi sahələrdə qələbənin müəllifidir

3

Səs

№ 124 (6565) **16 iyul**
2022-ci il. **Qiyməti 60 qəpik**

İlham Əliyev: Biz Qarabağı, Zəngəzuru yenidən qururuq!

2

Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirə keçirilib

Bakı və Brüssel yeni mərhələdə: problemlərin həlli sürətlənməlidir!

5

Azərbaycanla Avropa İttifaqı arasında mövcud olan yüksək əməkdaşlıq amili və onun inkişafı perspektivləri kifayət qədər məhsuldardır. Bu baxımdan, Avropa İttifaqının Cənubi Qafqaz regionunda sülhün, sabitliyin, iqtisadi inkişafın və eləcə də mehriban qonşuluq prinsiplərinin əldə olunması üçün göstərdiyi səyləri də Azərbaycan Respublikası tərəfindən yüksək qiymətləndirilməkdədir.

Qlobal taxıl böhranı: SƏBƏB?

8

Ceyhun Bayramov və Ararat Mirzoyan bu gün görüşəcəklər

6

Avtomobillərin qiyməti bahalaşacaq?

"Hər yerdə olduğu kimi, avtomobil sənayesində də xərclərin artırılması və tələbatın olması ilə əlaqədar müəyyən şəkildə qiymət artımı var".

6

Azərbaycanın hansı bölgələrində istirahət etmək daha ucuz başa gəlir?

"Ümumiyyətlə, iyun ayının əvvəlindən yay sezonu başlayıb. Yay sezonu da insanların ən çox istirahət etdiyi, tətilə çıxdığı sezondur".

Ronaldo ərəblərin 275 milyon avroluq təklifini rədd etdi!

"Mançester Yunayted"in portuqaliyalı ulduz futbolçusu Kriştiano Ronaldo yüksək maaş vəd edilməsinə baxmayaraq, adı açıqlanmayan Səudiyyə Ərəbistanı klubuna transfer olunmaq istəməyib.

16

Alla Puqaçova tanınmaz halda - illər öz sözünü deyir...

16

Rusiyalı müğənni Alla Puqaçova və onun yumorist həyat yoldaşı Maksim Qalkinin messencerlərdə yeni fotoları yayılıb.

Anti-Paşinyan cəbhəsində BLEF

Bir daha hakimiyyətə qayıtmaq istəyində olanlar erməni xalqını tamamilə düşüncəsiz hesab edirlər, amma ən düşüncəsiz...

7

İlham Əliyev: Biz Qarabağı, Zəngəzuru yenidən qururuq!

Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirə keçirilib

"Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik, 1 il 8 ay ərzində hələ bir dənə də kömək görməmişik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik."

Bu barədə Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki nitqində bildirib.

İlham Əliyev: "Hərbçilərin sosial müdafiəsi məsələləri də Azərbaycanda yüksək səviyyədə təmin edilir"

Dövlətimizin başçısı deyib: "Bununla paralel olaraq, sosial məsələləri həll edirik və edəcəyik, heç kimin bunda şübhəsi olmasın. Çünki yenə də bunu özümüzə mənəvi borc bilirik və bizim sosial siyasətimiz hər zaman belə olub. Baxın görün, son müddət ərzində əməkhaqları nə qədər artıb. Bu il, məsələn, orta əməkhaqqı haradasa 14 faiz artıb, pensiya 10 faizdən çox artıb. Bütün bu artımların mənbəyi var, bu da dövlət büdcəsidir. O büdcə ki, o büdcədən biz ordumuzu gücləndiririk və gücləndirəcəyik, bax, dediyim səbəblərə görə. O büdcə ki, biz sosial məsələləri həll edirik, Qarabağı yenidən qururuq və bütün başqa ehtiyaclarımızı ödəyirik və heç kimdən bir manat almadan. Ona görə bunu bilmək lazımdır. Bunu unudanlar da gərək yaddaşlarını, necə deyərlər, aydınlaşdırsınlar, bir az diqqətli olsunlar".

Dövlət başçısı daha sonra qeyd edib ki, müharibədən sonra bir çox şəhid ailələrinə və müharibə əlillərinə dövlət tərəfindən mənzillər verildi və hesab edirəm ki, bu il Bakı şəhərində bu məsələ artıq tam həll olunacaq. Keçən il 3 min mənzil və fərdi ev verilmişdir, bu il 1500 mənzil və ev verilir. "Bütövlükdə, Birinci və İkinci Qarabağ müharibələrinin şəhid ailələrinə və müharibə əlillərinə 12 min 500 mənzil verilib. Ermənistanda nə qədər verilib? Sıfır! Bir koma da verilməyib, bir daxma da verilməyib. Yəni, əlbəttə, biz Ermənistanla özümüzü heç cür müqayisə etmək istəmirik. Amma bu, reallıqdır. İndi dünyada o qədər müharibələr olub - bizim bölgəmizdə, bizim coğrafiyaya yaxın ola yerlərdə, başqa yerlərdə. Hansı ölkə bunu edir? Mənə desinlər, mən eşitməmişəm. Ona görə etmirik ki, bununla öyünək, ona görə edirik ki, bunu mənəvi borc bilirik, edirik və edəcəyik.

Bütün şəhid ailələri, hansılar ki, hələ növbədədir, yaxın gələcəkdə evlərlə təmin ediləcək", - deyə dövlətimizin başçısı vurğulayıb.

Reabilitasiya mərkəzləri yaradıldığını və ən müasir texnologiyalarla təchiz edildiyini diqqətə çatdıran Prezident deyib: "Minlərlə xidmət göstərilir, müharibə əlilləri üçün, veteranlar üçün, şəhid ailələri üçün məşğulluq marafonları keçirilir. Ümumiyyətlə, bu kateqoriyadan olan insanları fəal işə cəlb etmək üçün böyük işlər görülür. Bu, bəlkə də unudulur, bəlkə də bunu daha çox göstərmək lazımdır və qiymətləndirmək lazımdır, özü də bizim qarşımızda bu boyda işlər ola-ola".

Dövlətimizin başçısı qeyd edib ki, hərbçilərin sosial müdafiəsi məsələləri də Azərbaycanda yüksək səviyyədə təmin edilir. Hərbçilərin həm xidmət şəraiti, həm mənzil şəraiti haqqında bir çox məlumatlar var. Azərbaycanda bu sahədə görülən işlər deyə bilərəm ki, dünyada nadir hallarda təkrarlanır.

"İndi qüsursuz xidmət edən hərbçilərə dövlət tərəfindən mənzillər verilir. Bizim bütün hərbi şəhərciklərimiz əsaslı şəkildə təmir edilir, onun haradasa 90 faizi yenidən qurulub. O cümlədən azad edilmiş torpaqlarda nə qədər böyük işlər görülüb - hərbi şəhərciklər, bazalar, hərbi təyinatlı yollar, infrastruktur - biz bunu o ağır iqlim şəraitində edirik. Əlbəttə ki, müharibədə qəhrəmanlıq göstərmiş hərbçilərin sosial problemləri daim diqqət mərkəzindədir və müvafiq göstərişlər verilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu müddət ərzində, müharibədən sonrakı dövr ərzində böyük işlər görüb, bunu hamı bilməlidir".

Prezident qeyd edib ki, müharibədə əlil olmuş bütün hərbçilər artıq ən müasir protezlərlə təmin olunublar. "Dördüncü nəsil protezlər - o protezlər ki, insan rahat yaşaya bilər, gəzə bilər, hətta futbol oynaya bilər, qaça bilər. Biz bunu edirik. Bu, çox bahalı texnikadır və o texnologiya elədir ki, vaxtaşırı dəyişdirilməlidir. Biz bunu edirik və edəcəyik. Çünki öz sağlamlığını itirmiş hərbçilər dövlət tərəfindən daim qayğı ilə əhatə olunmalıdır. Dövlət bunu edir və yerlərdə məmurlar da bunu heç vaxt unutmamalıdır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Prezident İlham Əliyev diqqətə çatdırıb ki, Ermənistanın bizim beynəlxalq hüquq norma və prinsipləri əsasında formalaşan təkliflərimizi qəbul etməsi müsbət hal olsa da, hələ ki, konkret addımlar yoxdur: "Sabah Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşəcəklər. Bu, nazirlər arasında ilk görüş olacaq və biz ümid edirik ki, görüşün nəticələri olacaq. Çünki mənim Ermənistanın baş naziri ilə bir neçə görüşüm olub, Azərbaycan və Ermənistan nümayəndələrinin görüşü olub. Xarici işlər nazirləri arasında isə ikitərəfli görüş olmayıb, bu, birinci görüşdür. Ancaq artıq müzakirə olunan məsələlər masa üzərindədir. Mən hesab edirəm, bu görüşün yaxşı nəticəsi o ola bilər ki, Ermənistan tərəfi öz işçi qrupunu formalaşdırsın.

Sülh müqaviləsinin hazırlanması üçün Azərbaycan tərəfinin öz işçi qrupunu artıq formalaşdırdığını vurğulayan dövlətimizin başçısı qeyd edib: "Orada üzvlər də, o qrupda təmsil olunan üzvlər də müəyyən edilib. Ermənistan tərəfdən hələ ki, belə bir addım atılmayıb. Hesab edirəm ki, bu, yaxşı nəticə ola bilər və digər məsələlər müzakirə oluna bilər", - deyə Azərbaycan Prezidenti bildirib.

Azərbaycan Prezidenti: "Növbədə olan bütün şəhid ailələri yaxın gələcəkdə evlərlə təmin ediləcək"

Müharibədən 1 il 8 ay ötməsinə baxmayaraq, başqa hər hansı müsbət məqamın olmadığını təəssüflə qeyd edən Prezident İlham Əliyev bildirib: "Ancaq əfsuslar olsun ki, mənfi məqamlar daha çoxdur. Onlardan biri Ermənistanın 10 noyabr 2020-ci ildə imzalanmış Bəyannamədə təsbit edilən məsələlərdən boyun qaçırmasıdır. 10 noyabr Bəyannaməsi faktiki olaraq Ermənistanın kapitulyasiya aktıdır və müharibədə məğlub edilmiş tərəf kimi Ermənistan öz üzərinə öhdəliklər götürüb. Bu öhdəliklər orada açıq-aydın göstərilir. Onlardan biri erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılmasıdır. Bu günə qədər bu məsələ öz həllini tapmayıb. Biz dəfələrlə məsələ qaldırmışdıq, ancaq Ermənistan bunu uzadır. Eyni zamanda, biz Rusiyanın hərbi rəhbərliyi qarşısında bu məsələni qaldırmışdıq və bir neçə ay bundan əvvəl Rusiyanın Müdafiə Nazirliyinin yüksəkvəzifəli şəxsi Azərbaycanda səfərdə olarkən bizim Müdafiə Nazirliyinə söz vermişdi ki, iyun ayına qədər erməni silahlı birləşmələri Qarabağdan çıxarılacaq.

Ardı Səh. 3

İlham Əliyev: Biz Qarabağı, Zəngəzuru yenidən qururuq!

Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirə keçirilib

İlham Əliyev: "Erməni silahlı birləşmələrinin Azərbaycan ərazisində qalması tamamilə qəbuledilməzdir"

Əvvəli-Səh-2

Ancaq bu gün artıq iyulun ortasıdır, bu məsələ öz həllini tapmayıb. Ermənistan 10 noyabr Bəyannaməsinə zidd olaraq bu öhdəliyi yerinə yetirmir. Rusiya sülhməramlıları - Rusiya tərəfi də 10 noyabr Bəyannaməsini imzalayıb - necə deyərlər, onları buna məcbur etmir. Əlbəttə ki, bu, dözülməz vəziyyətdir. Çünki erməni silahlı birləşmələrinin Azərbaycan ərazisində qalması tamamilə qəbuledilməzdir. Biz qalib ölkəyik, biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Əgər Ermənistan Azərbaycan ərazisindən öz silahlı birləşmələrini çıxarmaq istəmirsə, onda bizə bunu açıq desin, biz də işimizi bilək. Bizim cavabımız nə olacaq? Onu bəlkə də indi demək yersizdir. Ancaq bu, 10 noyabr Bəyannaməsinin kobudcasına pozulması deməkdir".

Azərbaycan Prezidenti vurğulayıb ki, bu ilin altı ayında Azərbaycan-Ermənistan əlaqələrinin normallaşdırılması istiqamətində müəyyən addımlar atılsa da, əfsuslar olsun ki, hələlik real nəticələr yoxdur. Baxmayaraq ki, Vətən müharibəsindən 1 il 8 ay ötüb, ancaq əfsuslar olsun ki, Ermənistan məcburən üzərinə götürdüyü öhdəliklərini hələ də yerinə yetirmir.

Dövlətimizin başçısı bu istiqamətdə müsbət məqamların da olduğunu vurğulayaraq, bu baxımdan delimitasiya üzrə işçi qruplarının birinci görüşünün keçirildiyini qeyd edib: "Biz bunu müsbət addım kimi qiymətləndiririk. Bu da ölkəmizin təşəbbüsü ilə baş vermiş hadisədir. Çünki məhz Azərbaycan sərhədlərin delimitasiyası ilə bağlı addımların tezliklə atılmasına çalışırdı. Ermənistan tərəfi buna o qədər də meyilli deyildi. Ancaq birinci görüş keçirildi. Əlbəttə, bu görüş daha çox tanışlıq xarakteri daşıyırdı. Gələn ay ikinci görüşün keçirilməsi nəzərdə tutulur. Hesab edirəm ki, ikinci görüş artıq praktik məsələlərin müzakirəsinə həsr olunacaq. Əlbəttə, bu formatda olan əməkdaşlıqdan biz hələ ki, tez nəticə gözləmirik, çünki delimitasiya uzun bir prosesdir. Amma hər halda bu proses başlayıb, biz bunu uğurlu inkişaf kimi qiymətləndirə bilərik".

Digər müsbət hal kimi Azərbaycanın təşəbbüsü ilə sülh müqaviləsinin əsasını təşkil edəcək beş əsas baza prinsipinin Ermənistan tərəfindən qəbul edildiyini vurğulayan dövlətimizin başçısı qeyd edib: "Ermənistan rəhbərliyi rəsmən bu beş prinsipi qəbul edib. Bu beş prinsip nədən ibarətdir, bunu Azərbaycan ictimaiyyəti yaxşı bilir, təkrarlamaq istəmirəm. Ancaq təmasda olduğum bütün tərəf müqabilləri ilə müzakirələr zamanı Azərbaycanın bu təşəbbüsü təqdir olundu. Münaqişənin məhz bu prinsiplər əsasında həll olunması demək olar ki, təsdiqləndi. Ermənistan bunu qəbul etdi və bunu rəsmən etiraf etdi. Biz bu məsələni bir neçə qonşu dövlətlə müzakirə etmişik - Türkiyə ilə, Rusiya ilə, İranla müzakirə etmişik və bu mövqe dəstəklənir. Avropa İttifaqı, Amerika Birləşmiş Ştatları - biz bu tərəfdaşlarla da bu məsələni müzakirə etmişik və faktiki olaraq indi sülh danışıqlarının başlanması üçün əsas yaradılıb. Yenə də Azərbaycan təşəbbüs göstərib, yenə də bu beş prinsipi formalaşdıran bizik və əgər biz bu təşəbbüsü öz üzərimizə götürməsəydik, bu günə qədər bu istiqamətdə də heç bir inkişaf olmazdı".

Azərbaycan Prezidenti İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlıq əlaqələrindən də bəhs edib. "Bu il Avropa İttifaqı ilə fəal əməkdaşlıq aparılmışdır. Bildiyiniz kimi, biz yeni saziş üzərində işləyirik. Sazişin böyük hissəsi razılaşdırılıb və razılaşdırılmamış məsələlər də müzakirə olunur. Ümid edirəm ki, yaxın gələcəkdə bütün məsələlər razılaşdırılacaq."

Avropa İttifaqı Şurasının Prezidenti ilə bir neçə dəfə görüşdüyünü və telefon danışığını xatırladan Prezident İlham Əliyev bildirib: "Əlbəttə ki, əsas mövzu Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasıdır. Ancaq, eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı geniş müzakirələr aparılır. Yaxın günlərdə Avropa İttifaqı ilə Azərbaycan arasında önəmli sənəd - enerji təhlükəsizliyi ilə bağlı sənəd imzalanacaq və bizim əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldıracaqdır".

Dövlətimizin başçısı qeyd edib ki, qonşu ölkələrlə əlaqələrimiz hər zaman bizim üçün əsas prioritetlərdən biri olub və bu il bu istiqamətdə addımlar atılıb - mənim Rusiya, İran, Gürcüstan prezidentləri ilə görüşlərim bir daha bunu göstərir. Amerika-Azərbaycan əlaqələrinin inkişafı istiqamətində önəmli addımlar atılıb, yüksəkvəzifəli şəxslərin qarşılıqlı səfərləri təşkil edilib.

"Amerika Birləşmiş Ştatlarının Prezidenti mənə iki dəfə məktub göndərmişdir - həm Müstəqillik Günü ilə bağlı, həm Bakı Enerji Həftəsinin açılışı ilə bağlı. Mənim də cavab məktublarımda və mənə göndərilən məktublarda da əlaqələrimizin önəmi xüsusilə qeyd olunmuşdur. Bu əlaqələrin həm böyük tarixi və gözəl gələcəyi var. Yəni, bir sözlə, əsas güc mərkəzləri ilə, eyni zamanda, əsas beynəlxalq təşkilatlarla, baxın, cəmi bu altı ay ərzində nə qədər böyük işlər görülüb", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Azərbaycan Prezidenti deyib ki, əgər ümumiyyətlə, son illərin tarixçəsinə nəzər salsaq, Azərbaycanın hər istiqamət üzrə irəlilədiyini görərik: "Bizim mövqeyimiz hər zaman müstəqil mövqe olub, biz hər zaman öz mövqeyimizi açıq nümayiş etdirmişik, o cümlədən buna görə dünyada böyük hörmət qazanmışıq. Həmişə sözümüzdə dururuq, həmişə verilən sözə sadiqik".

Ərəb mətbuatı: Prezident İlham Əliyev siyasi, hərbi və iqtisadi sahələrdə qələbənin müəllifidir

Ərəb ölkələrinin "Kitabat", "Algeria59", "Afkarhura", "Əl Hərir" portallarında "Prezident İlham Əliyev siyasi, hərbi və iqtisadi qələbənin müəllifidir" sərlövhəli məqalə yayımlanıb.

AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi olan Kərkük türkmən ziyalısı Cəssim Məhəmməd Məhərrəmoğlu Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanda siyasi və iqtisadi sahələrdə əldə olunmuş uğurlardan bəhs edib. O vurğulayıb ki, məhz müdrik diplomatik kurs və iqtisadi uğurlar sayəsində 44 günlük müharibədə möhtəşəm Qələbə qazanılıb, Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə torpaqları erməni işğalından azad edib.

Məqalədə Prezident İlham Əliyevin türk dünyasında həmrəyliyə və birliyə nail olunması istiqamətində apardığı siyasətdən də bəhs olunub. Müəllif diqqətə çatdırıb ki, İkinci Qarabağ müharibəsində qardaş Türkiyənin Azərbaycanla birlikdə olması, digər türkdilli ölkələrin rəsmi Bakının ədalətli mövqeyini birmənalı dəstəkləməsi bu diplomatik kursun nəticəsidir. Eyni zamanda, Prezident İlham Əliyevin siyasi məharəti sayəsində müharibə zamanı dünyanın aparıcı dövlətləri, həmçinin Yaxın Şərqin ərəb ölkələri də rəsmi Bakının öz torpaqlarını azad etmək uğrunda mübarizəsini anlayışla qarşıladılar.

Sonda qeyd olunub ki, müharibədə böyük Zəfər qazanmış Azərbaycan xalqı öz müdrik Prezidentinin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə quruculuq, bərpa və tikinti işləri aparır. Eyni zamanda, regionun dayanıqlı sülh və əməkdaşlıq məkanına çevrilməsi istiqamətində konstruktiv siyasət davam etdirilir.

İlham Əliyev: "Dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur"

Altı il əvvəl qardaş Türkiyə xalqı Vətəninin müstəqilliyini, suverenliyini müdafiə edərək, dövlətçiliyə və demokratiyaya sahib çıxaraq əsl şücaət və qəhrəmanlıq nümunəsi göstərmiş, dünyaya bir daha qüdrətini və əzəmətini sübut etmişdi. 15 İyul hadisələri ilə əlaqədar təsis edilmiş "Demokratiya və Milli Birlik Günü" qəhrəman xalqınızın Vətəninə və dövlətinə bağlılığının, dövlətçiliyə və demokratik ənənələrinə sadiqliyinin təcəssümüdür.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyədə 15 İyul dövlət çevrilişi cəhdinin altıncı ildönümü ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana göndərdiyi məktubda yer alır. Qeyd olunur ki, Azərbaycan xalqı dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını fəda edən şəhidlərin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edir.

Məktubda, daha sonra deyilir: "Qardaş xalqınızın əsl lideri kimi Sizin şəxsinizə olan sonsuz inam və etimadı, Sizin ətrafınızda sıx birləşməsi Türkiyə dövlətinə qarşı yönəlmiş xəyanətin qarşısını almaqda, ölkənizin bu çətin sınaqdan başıuca çıxmasında həlledici rol oynadı. Milli birliyin və həmrəyliyin, sarsılmaz iradənin və güclü liderliyin təntənəsi olan bu möhtəşəm zəfər Türkiyə dövlətçiliyinin tarixinə əbədi olaraq həkk olunmuşdur".

Prezident İlham Əliyev xatırladıb ki, Azərbaycan xalqı və dövləti ilk dəqiqələrdən qardaş Türkiyənin yanında olaraq və həmrəylik göstərərək bu xəyanətkar dövlət çevrilişi cəhdini ən qəti şəkildə qınamışdır. "Bir millət, iki dövlət" prinsipi əsasında həm sevincli, həm də kədərli günlərdə bir-birinə dayaq olan xalqlarımız məhz çətin anlarda qarşılıqlı dəstək göstərərək qardaşlığını sübut edirlər. Biz bundan sonra da bütün məsələlərdə Türkiyənin yanında olacağıq.

"Qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Əminəm ki, bir ay əvvəl imzalanmasının birinci ildönümünü qeyd etdiyimiz Şuşa Bəyannaməsində müəyyənləşdirdiyimiz müttəfiqlik hədəflərinə doğru bundan sonra da inamla addımlamağa davam edəcəyik", - deyə məktubda vurğulanır.

"Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi vacibdir"

Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib. Toivo Klaar Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev də salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Şarl Mişelə çatdırmağı xahiş edib.

Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh sazişinin imzalanması, kommunikasiyaların açılması, Azərbaycanın üzləşdiyi mina problemi, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş soydaşlarımızla bağlı mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı Brüsseldə keçirilmiş görüşlərin nəticəsi olaraq əldə edilmiş razılaşmaların həyata keçirilməsinin və 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsinin vacibliyini vurğulayıb.

"İran Azərbaycan ilə mehriban qonşuluq və dostluq münasibətlərinin inkişaf etdirilməsində maraqlıdır"

Prezident İlham Əliyev İranın Ali Milli Təhlükəsizlik Şurasının katibini qəbul edib



Prezident İlham Əliyev iyulun 15-də İran İslam Respublikasının Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Şamxanini qəbul edib. Əli Şamxani İran Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş edib.

Söhbət zamanı dövlətimizin başçısı Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısı çərçivəsində İran Prezidenti ilə görüşünü məmnunluqla xatırlayıb, həmin görüşdə ikitərəfli əməkdaşlığın inkişafına dair geniş fikir mübadiləsinin aparıldığını qeyd edib.

Əli Şamxani Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi münasibətilə xalqımızı təbrik edib. Qonaq İranın Azərbaycan ilə mehriban qonşuluq və dostluq münasibətlərinin inkişaf etdirilməsində maraqlı olduğunu və ölkəmizlə əlaqələrin genişləndirilməsinə həmişə böyük əhəmiyyət verdiyini vurğuladı.

Görüşdə, ikitərəfli gündəliyə aid olan məsələlər, o cümlədən İran ilə Azərbaycan arasında nəqliyyat-kommunikasiya xətlərinin inkişafı və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycanla Avropa İttifaqı arasında mövcud olan yüksək əməkdaşlıq amili və onun inkişafı perspektivləri kifayət qədər məhsuldardır. Bu baxımdan, Avropa İttifaqının Cənubi Qafqaz regionunda sülhün, sabitliyin, iqtisadi inkişafın və eləcə də mehriban qonşuluq prinsiplərinin əldə olunması üçün göstərdiyi səyləri də Azərbaycan Respublikası tərəfindən yüksək qiymətləndirilməkdədir.

Bakı və Brüssel yeni mərhələdə: problemlərin həlli sürətlənməlidir!

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın da bölgədə sülhün və sabitliyin bərqərar olması yönündəki addımları Prezident İlham Əliyev tərəfindən müsbət qarşılanmaqdadır

Xüsusilə, 44 günlük ikinci Qarabağ müharibəsindən sonrakı dövrdə - regionda baş verən dəyişikliklər fonunda söz sahibi olduğunu sübuta yetirən Azərbaycan hökuməti qarşıda dayanan vəzifələrin hər birini yalnız tərəqqi konsepsiyasına yönəltdiyini əməli şəkildə isbatlamaqdadır. Əbəs deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev də yüksək tribunalardan etdiyi çıxışlarının hər birində bu işdə öz töhfəsini verən bütün nüfuzlu beynəlxalq siyasi dairələrə minnətdarlıq fikirlərini çatdırır. Bu xüsusda, Brüsselin Bakı ilə sıx əməkdaşlığını özəlliklə vurğulaya bilərik.

Azərbaycan Respublikası-Avropa İttifaqı arasında mövcud olan səmimiyyət: inam və etibarın, habelə ortaq etimadın məntiqi nəticəsi

O da əbəs deyil ki, Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişellə görüşləri, telefon danışıqları zamanı irəli sürülən təşəbbüslərin və səylərin sabitlik faktoruna və ədalət prizmasına söykəndiyini qeyd edib, rəsmi Bakının hər zaman bu kimi məsələlərə açıq olduğunu qeyd edib.

Eyni zamanda, Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın da bölgədə sülhün və sabitliyin bərqərar olması yönündəki addımları Prezident İlham Əliyev tərəfindən müsbət qarşılanmaqdadır. İyulun 15-də Bakıda rəsmi səfərdə olan Toivo Klaarın Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin salamlarını dövlətimizin başçısına çatdırması, Prezident İlham Əliyevin isə salamlara görə minnətdarlığını bildirməsi,

eləcə də onun da salamlarını Şarl Mişelə çatdırmasını xahiş etməsi Azərbaycan Respublikası-Avropa İttifaqı arasında mövcud olan səmimiyyətin, inam və etibarın, habelə ortaq etimadın məntiqi nəticəsi kimi dəyərləndirilə bilər.

Qeyd edək ki, İlham Əliyevlə Toivo Klaar arasındakı görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh sazişinin imzalanması, kommunikasiyaların açılması, Azərbaycanın üzləşdiyi mina problemi, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş soydaşlarımızla bağlı mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

Rəsmi Bakı 44 günlük müharibədən sonrakı prosesdə qalib dövlət olması ilə yanaşı, həm də əldə edilən razılaşmaların qısa müddətdə həyata keçirilməsinin tərəfdarı olduğunu vurğulayır

Bu, həm də o deməkdir ki, rəsmi Bakı 44 günlük müharibədən sonrakı prosesdə qalib dövlət olması ilə yanaşı, həm də əldə edilən razılaşmaların qısa müddətdə həyata keçirilməsinin tərəfdarı olduğunu vurğulayır. Təəssüf ki, qarşı tərəf - Ermənistan hələ də prosesi uzatmağa çalışır, qarşıda dayanan şərtləri, tələb və təklifləri gözardı edir və bu kimi yanaşmalar ilk növbədə zərif sülhün mövcudluğuna xələl gətirir.

Böyük sülh sazişinin imzalanması üçün rəsmi İrəvanın qeyri-səmimi davranışları əlbəttə ki, Avropa İttifaqının da nəzərindən yayınmır və bu mötəbər qurum sülhü təsdiq edəcək sazişə qədər qalan problemlərin həllində maraqlı olduğunu sərgiləyir. Belə ki, mina xəritələrinin tam şəkildə Azərbaycana təqdim olunmamasından tutmuş sərhədlərin delimitasiyası və demarkasiyasına, habelə kommunikasiyaların açılmasına, o cümlədən, Birinci Qarabağ müharibəsində itkin düşmüş vətəndaşlarımızın talelərinə aydınlığın gətirilməsinə qədər

mövcud olan məsələlər öz həllini tapmalıdır.

Nəticəli iş ortaya qoymaqla Avropa İttifaqının beynəlxalq aləmdəki fəaliyyəti daha səmərəli şəkildə dəyərləndiriləcək

Avropa İttifaqı rəhbərliyi də yaxşı bilir ki, sözügedən prosesdəki problemlərin aradan qaldırılması onların da nüfuzuna kifayət qədər müsbət çalarlar gətirəcək. O cümlədən, nəticəli iş ortaya qoymaqla Avropa İttifaqının beynəlxalq aləmdəki fəaliyyəti daha səmərəli şəkildə dəyərləndiriləcək. Söz yox ki, Şarl Mişel və Toivo Klaar kimi nüfuzlu siyasət adamları, diplomatlar da Azərbaycan Prezidenti İlham Əliyevin keçirilən görüşlər əsnasında irəli sürdüyü fikir və tövsiyələrindən nəticələr çıxarır, fəaliyyət planlarını artırırlar.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın Bakıda Azərbaycan Prezidenti ilə görüşü zamanı dövlət başçımızın Brüsseldə keçirilmiş görüşlərin nəticəsi olaraq əldə edilmiş razılaşmaların həyata keçirilməsinin və 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsinin vacibliyini vurğulaması da belə bir nəticə hasil etməyə zəmin yaradır ki, artıq sülhün əldə olunması üçün yekun mərhələyə doğru addımlar atılıb və bunun üçün Avropa İttifaqı öz səylərini daha möhkəm əsaslara söykəməli, rəsmi İrəvanın fəaliyyətində dönüş yaratmalı, bölgədə sabitliyin yaranmasında, inkişaf perspektivlərinin əldə olunması istiqamətində öz töhfələrini daha da artırmalıdır.

Beləliklə, qeyd edə bilərik ki, Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlər artıq ən yüksək səviyyədə formalaşıb və bu münasibətlər qarşıdakı zamanlarda öz uğur bəhrələrini verəcəkdir.

Rövşən RƏSULOV

ANALİTİK AKTUAL

VƏTƏNƏ SEVGİ TƏMƏNNALI OLMUR

Bu gün Azərbaycanın modern dövlət quruculuğunda sosial siyasətin önəmli istiqamətlərindən biri də şəhid ailələrinin, Qarabağ müharibəsi veteranları və əlillərinin sosial müdafiəsidir. Ümumilikdə, mütərəqqi sosial siyasət həyata keçirən Azərbaycanda vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirilir. Xüsusilə, bu gün müstəqil Azərbaycan, dövlət başçısı İlham Əliyev İkinci Vətən Müharibəsi nəticəsində qaçqın və məcburi köçkünlərə, müharibədə şəhid və fiziki sağlamlığını itirən şəxslərin ailələrinə xüsusi diqqət ayırır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, 44 günlük Vətən Müharibəsinin əldə etdiyi bu böyük Qələbənin əsas qəhrəmanı Azərbaycan əsgəri və zabitidir. Müharibə zəfərlə başa çatandan sonra Ali Baş Komandanımızın ilk növbədə yaralı hərbçilərimizlə görüşməsi də onlara yüksək hörmət və ehtiramın, qayğının nümunəsidir. Və bu gün torpaqları işğal olunmuş bir ölkənin ərazi bütövlüyünü qoruyanlar və haqq savaşını verənlər hərbçilər, qazilər və şəhid ailələri Azərbaycan dövlətinin hər zaman xüsusi diqqət və qayğısı altındadır. Prezident İlham Əliyev Bakının Ramana qəsəbəsində şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşündə son 17 il ərzində şəhid ailələri ilə dəfələrlə görüşdüyünü diqqətə çatdıran dövlətimizin başçısı deyib: "Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilibdir. Bu il isə 3 minə yaxın mənzil veriləcək. Beləliklə, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş övladlarımızın Bakıda, Sumqayıtda, Abşeron rayonunda yaşayan ailələrinə bu ilin sonuna qədər mənzillər veriləcək. Yəni, bu proqramı biz Bakı, Sumqayıt və Abşeron rayonunda bu ilin sonuna qədər tam icra edəcəyik. Digər şəhər və rayonlarımızda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi davam etdirilir. Əminəm ki, yaxın gələcəkdə bu proqram tam icra olunacaqdır. Onu da bildirməliyəm ki, müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını verilib".

"AZƏRBAYCAN BU SAHƏDƏ DƏ DÜNYA MİQYASINDA ƏN QABAQCIL YERLƏRDƏDİR"

Prezident qeyd edib ki, Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir: "Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib".Çünki Azərbaycan dövlətinin apardığı siyasətin əsas məqsədi ölkənin iqtisadi cəhətdən daha da inkişaf etməsidir. Təsadüfi deyil ki, hər il ölkənin büdcəsi təsdiq olunarkən əhalinin sosial rifahının artırılması diqqət mərkəzində olur. Büdcədən sosial sahəyə ayrılan vəsaitin həcmi ildən-ilə artır. İstər pandemiya şəraiti səbəbindən, istərsə də İkinci Vətən Müharibəsi dövründən dövlətin gəlirləri müəyyən qədər azalsa belə, cari ildə də sosial sahəyə ayrılan vəsaitin həcmi çoxalıb. Həyata keçirilən sosial siyasət həm də geniş əhatəli olmaqla, ölkənin sosial dəstəyə ehtiyacı olanların hamısının mənafeyi nəzərə alınıb. Azərbaycanda tələbələrdən tutmuş İkinci Dünya müharibəsinin veteranlarına kimi hamıya sosial qayğı göstərilir. Xüsusilə, Prezident İlham Əliyevin şəhid ailələri və qazilərlə bağlı cari ilin yanvar ayının 25-də imzaladığı "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı deyilənlərin bariz nümunəsidir. Bu Sərəncam da digər sərəncamlar və fərmanlar kimi Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsində həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu Sərəncam çoxsaylı ailələrə mənzil ehtiyaclarını qısa zaman kəsiyində ödəməklə onlara böyük sevinc bəxş edəcək, bununla da şəhid ailələrinin sosial müdafiəsi daha da yaxşılaşacaq. Qeyd edim ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Xüsusilə, Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən intensiv tədbirlər artıq öz təsirli nəticələrini verməkdədir. Eyni zamanda, şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri yüksək səviyyədə davam etdirilir. Həmçinin, əlil vətəndaşlara dövlət qayğısının gücləndirilməsi siyasətinə uyğun olaraq Nazirlər Kabineti tərəfindən əlillərin sosial müdafiəsi ilə bağlı nəzərdə tutulmuş Dövlət Proqramının maliyyələşdirilməsi təmin olunub. "Sosial müavinətlərin məbləğinin artırılması haqqında", "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması və "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanları bu kateqoriyadan olan insanların rifah halını yaxşılaşdırmaq və onlara göstərilən dövlətin davamlı qayğısının bariz nümunəsidir. Bütün deyilənlərlə yanaşı, Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Mərkəzi Bank və Azərbaycan Banklar Assosiasiyası banklar tərəfindən Müdafiə Nazirliyinin rəsmi siyahısında yer almış şəhidlərdən banklar qarşısında kredit öhdəliyi olan 830 şəhidə aid 1 503 kredit üzrə həm əsas borcun, həm də faizlərin silinməsini təmin ediblər. Eyni zamanda, şəhidlərimizin ailə üzvlərinə aid olan 286 sayda, xəsarət almış hərbçilər üzrə 1 323 sayda kreditin, şəhid olmuş 15 nəfər və ciddi zərər çəkmiş 9 nəfər mülki şəxsin borc öhdəliklərinin tamamilə silinməsi təmin olunub. Həmçinin, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanuna əsasən, dövlət ali, orta ixtisas və peşə təhsili müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda ödənişli formada təhsil alan şəhid ailələrinin üzvləri təhsil haqqı ödəməkdən azad olunmasıdır. Göründüyü kimi, Prezident İlham Əliyevin uğurlu sosial siyasəti ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılması istiqamətində mühüm addımların atılmasını, sosial inkişafda ciddi irəliləyişləri təmin edir. Bütün sosial proqramlar kimi, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzil və fərdi evlə təminatı proqramı da ildən-ilə uğurla davam etdirilir və əhəmiyyətli şəkildə minnətdarlıqlarını ifadə ediblər genişləndirilir. Azərbaycan Prezidenti İlham Əliyev cənablarının dediyi kimi: "Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib".

Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir. Bütün bu uğurlu işləri görə bilməyən və özünü "yaziyə "sanı yandığını göstərməklə ölkədə siyasi sabitliyi pozmaca çalışan xəstə ruhlu Vətən satqınları hələ də öz çirkin əməllərindən əl çəkmir. Ancaq...

QAZİ VƏ ŞƏHİD AİLƏSİ ADINDAN SUİ-İSTİFADƏ HALLARINA NİFRƏTLƏ YANAŞIRLAR

Əlbəttə ki, Azərbaycan xalqı tükü-tükdən seçən həssas xalqdır və açıq fikirli və hər kəsi öz simasında tanımağı bacarır. Əl-ayağını itirən, dünyaya baxan gözünü itirən, psixoloji travmalar alan vətən oğullarımız heç zaman bu cür hay-küyə qoşulmaz və dövlətin mənafeyin hər şeydən üstün tuturlar. Üzdəniraq insanların addımlarına sosial şəbəkələrdə təsadüf etdikdə, təəssüflənirik ki, Vətənə can fəda edən oğullarımızın adına kölgə salmaq niyyətində olan insanlar kimlərinsə sifarişlərini yerinə yetirirlər. Belə dələduzlar hətta məscidlərin, ziyarətgahların ətrafında sui-istifadə halların yol verirlər. Xüsusilə də, bəzən mübahisələr olur ki, mənə dəbdəbəli ev tikdirməlisən və ya qəbirüstü abidə bahalı olmalı, başqalarınkından seçilməlidir. Bu, cəmiyyətdə qıcıq doğurur. Şəhidlər Vətən uğrunda canlarını fəda ediblərsə, onların adına verilmiş küçə adları da dəb xatirinə bir-birindən yüksək olmamalıdır. Çünki dövlət belə şəxslərə daim böyük diqqətlə yanaşır. Həmin kateqoriyadan olanların həyatının normallaşdırılması qəbul olunan bir sıra qərarlar, fərman və sərəncamlar deyilənlərin göstəricisidir. Dövlət həmin kateqoriyalı insanlara qayğı ilə yanaşır. Və bu gün qazilər çirkin məqsədlərini həyata keçirmək üçün istifadə edənlərə qarşı bir olmalıdırlar, imkan verməməlidirlər ki, həmin çirkin qüvvələr onların qazi adına ləkə vursunlar. Bəli, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bütün sahələr üzrə demokratik, şəffaf islahatlar siyasətini dönmədən həyata keçirməkdədir. Həmin siyasətin əsasını Ulu Öndər Heydər Əliyev qoyub. Ulu Öndər Heydər Əliyev bildirirdi ki, veteranlar bizim qızıl fondumuzdur: "Onlar hər cür qayğı və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur."

Bir sözlə, bütün bunlar onu göstərir ki, şəhid ailələrinə və qazilərə qayğı göstərmək dövlətin prioritet vəzifəsidir və Azərbaycan Prezidenti və Birinci vitse-prezident Mehriban xanım Əliyeva qayğıya ehtiyacı olan insanların, xüsusilə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların ailələrinin, əlillərin sosial məsələlərinin həllini xüsusi diqqət mərkəzində saxlayır və bundan sonra da saxlayacaq. Bu ölkədə görülən bütün işlər isə yalnız vətəndaşlarımızın və dövlətimizin ali mənafeyinə xidmət edir. Ancaq bu addan sui-istifadə halları isə şəhidin adına, ruhuna hörmətsizlik etməklə, bu böyük ada ləkə yaxanlar bilməlidirlər ki, Vətənə sevgi təmənnalı olmur.

RƏFİQƏ KAMALQIZI

Ceyhun Bayramov və Ararat Mirzoyan bu gün görüşəcəklər

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla Tbilisidə görüşəcək. SİA xəbər verir ki, bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb. Qeyd olunur ki, nazirlər iyulun 16-da Gürcüstan paytaxtında görüşəcək.

Bu, Ermənistan və Azərbaycanın xarici işlər nazirlərinin ilk ikitərəfli görüşüdür. Bundan əvvəl xarici işlər nazirləri Düşənbədə Rusiya xarici işlər naziri ilə üçtərəfli görüşlər çərçivəsində danışıqlar aparıblar.

Avtomobillərin qiyməti bahalaşacaq?

"Hər yerdə olduğu kimi, avtomobil sənayesində də xərclərin artırılması və tələbatın olması ilə əlaqədar müəyyən şəkildə qiymət artımı var". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Xalid Kərimli deyib.

Onun sözlərinə görə, Azərbaycanda Aİ-95 markalı benzinin qiymətində artımın olması ümumi avtomobil bazarına təsir edə bilməz: "Aİ-95 markalı benzinin qiymətində artımın olması alıcıların daha ekonomik və ya daha aşağı keyfiyyətli benzin işlədən avtomobillərə marağını artıra bilər. Bunun nəticəsində Aİ-95 markalı benzin işlədən avtomobillər bir qədər azala bilər. Bir sözlə ümumi tələbin içərisində yerdəyişmə ola bilər. Ancaq ümumi şəkildə avtomobil bazarında baş verən proseslər Azərbaycanda benzin qiymətləri əlaqədar deyil. Amma ki, ölkədə hibrid, daha ekonomik avtomobillərə tələb bir qədər arta bilər".

Arzu Qurbanlı

Anti-Paşinyan cəbhəsində BLEF

Bir daha hakimiyyətə qayıtmaq istəyində olanlar erməni xalqını tamamilə düşüncəsiz hesab edirlər, amma ən düşüncəsiz xalq belə həmin o kreslolarına qayıtmaq arzusunda olanları yaxşı tanımalıdır. Həm də erməni xalqı onların hakimiyyəti dövrünü də unutmayıb, çünki onların idarəçilik etdiyi dövrdən çox keçməyib və həmin dövrdə necə yaşadıqlarını da yaxşı bilirlər. Ümumiyyətlə, verilən vədlərin bir blef olduğunu ən sadə ermənidən tutmuş baş nazir Paşinyanın özünə qədər demək olar ki, bütün Ermənistan vətəndaşları anlayırlar, sadəcə bəzilərinin bunun fərqində olmamasından məharətlə istifadə olunaraq mitinqlər təşkil olunur, reallıqdan tamamilə uzaq vədlər verilir.

Məsələ burasındadır ki, Ermənistanda mitinqlər və bu mitinqlərin nəticələri barədə xülyalarda olanlar bərk yanılırlar. Çünki, Ermənistan ictimaiyyəti müxalifətin boş və mənasız səs-küyündən yorulub və dərk edir ki, anti-Paşinyan hərəkatının başında duranlar ancaq öz kreslolarını yenidən qazanmaq istəyənlərdir. İndi ermənilər gec də olsa dərk edirlər ki, bu reallıqdan başqa nə deyilirsə, boş söhbətdir. Əbəs yerə deyil ki, bu işğalçı ölkə müxalifəti hələ də arzusunda olduğu sayda etirazçı toplaya bilməyib. Bununla belə Ermənistan müxalifəti hələ də öz bayrağı altında mümkün qədər çox insanı cəlb etmək ümidini itirmir, çünki istənilən etiraz hərəkatının uğuru onun kütləvi xarakter daşımasıdır. Elə bu səbəbdən də növbəti mitinqi iyulun 15-də keçirməyi planlaşdırması da başadüşüləndir. Maraqlıdır, bəs daha çox insan cəlb etmək üçün necə edə, nədən istifadə edə bilərdi bu ölkə müxalifəti? İndi hansı yola əl atılır və bunun arxasında nə dayanır?

Sarkisyanın və Koçaryanın tərəfdarları elə zənn edirlər ki, yenə də, əslində artıq olmayan Qarabağ məsələsini ortaya ataraq daha çox insan kütləsini küçə və meydanlara toplaya bilərlər. Elə hətta utanmadan iddia edirlər ki, guya bu, hər bir erməninin ən ağrılı yeridir. İşğalçı ölkə müxalifəti tamamilə həyasızlıq nümayiş etdirir və mövcud reallığın heç də həlledici məqam olmadığını bildirir. Onlar erməniləri inandırmağa çalışırlar ki, guya 10 noyabr 2020-ci il tarixli bəyanat guya heç də son nəticə deyil və guya vəziyyəti dəyişə bilərlər. Bunun isə artıq ən böyük həyasızlıqla edilən blef olduğu bəllidir, çünki tamamilə mümkün olmayan bir iddia irəli sürürlər, əvəzində isə xalqı aldadıb küçələrə çıxarmaqla mövcud hakimiyyəti uzaqlaşdırmaq, yerini isə tutmaq planlaşdırılır.

su deyə bilməyən Vardevanyan sadəcə boş-boş danışır və müxalifət blokundan olan bu deputat da sadəcə blef edənlərə qoşulur.

Artıq erməni cəmiyyəti belələrinə sual ünvanlayır ki, niyə hələ də onları axmaq yerinə qoymağa davam edirlər? Həmin o erməni cəmiyyəti sual verir ki, məgər Koçaryanın tərəfdarları hələ də elə hesab edirlər ki, onların yalan vədlərinə inanıb Ermənistanın ikinci prezidentinin bayrağı altında yığışılacaq? Onlar açıq-aşkar bildirirlər ki, Qarabağ haqqında deyilənlər, verilən vədlər hamısı mümkün qədər çox insanı özlərinə tərəf çəkmək üçün bir bəhanə, bir oyundur ki, bu blefi indi hər bir erməni başa düşür. Hətta qeyd olunur ki, bu, son və yeganə bəhanədir ki, bunu əllərində alət olaraq istifadə edəcəyini düşünənlər yanılırlar. Bəli, ermənilər bilirlər ki, istər hakimiyyətdən, istərsə də müxalifətdən eşitdikləri pafoslu sözlər həqiqətdən çox uzaqdır. Bilirlər ki, yaşadıqları ölkədə bir neçə aydır ki, Silahlı Qüvvələrin Baş Qərargah rəisi belə yoxdur. Elə isə hansı revanşdan, hansı dəyişiklikdən dəm vururlar? Ən maraqlısı odur ki, populist çıxışlar edən adamlar artıq bunun mənasız olduğunun fərqində olmadılarmı? Bilmədilər, əmin olmadılarmı ki, populizm onlara heç nə vermədi və heç bir vəd belə verməyə şans demək deyil, əksinə, populizmin onları hansı uçuruma yuvarlandırığının ən qısa zamanda şahidi oldular.

Bəli, ola bilsin ki, Ermənistanda hakimiyyət dəyişikliyi olarsa, rəsmi İrəvanın mövqeyində müəyyən dəyişiklik ola bilər, o da çox az miqdarda, çünki Azərbaycanın yaratdığı reallığı qəbul etməmək kimi bir şansları belə yoxdur. Əvvəla, sadəcə olaraq yeni müharibə üçün Ermənistanın gücü yoxdur. Başda hərbi texnika, silah-sursat olmaqla, heç bir resursu olmayan Ermənistan revanş, yeni müharibə haqqında düşünmək belə iqtidarında deyil. Eyni zamanda Rusiyaya, yaxud Qərbə belə arxalana biləcəklərini də düşünmələri ağılsızlıq olardı. Ona görə ki, Rusiyanın başı özünə qarışıb, Qərbin isə heç bir təbii ehtiyatı, bir sözlə, faydası olmayan Ermənistana zərrə qədər marağı qalmayıb və bu vəziyyətdə ermənilər yardım gözləyə bilməzlər. Bu isə müharibə, revanş haqqında deyilənlərin cəfəngiyyat olduğu qənaəti üçün yetərlidir. Həm də Qərb nəyə görə enerji təhlükəsizliyinə tövhələr verməkdə olan Azərbaycanın haqq işini, ədalətli mövqeyini qoyub ermənilərin haqsız tələblərini, iddialarını müdafiə etməlidir axı? Bu suallar ermənilərin, daha çox da Koçaryan və Sarkisyan tərəfdarlarının xoşuna gəlməyə bilər, amma reallıqdır. Reallıq odur ki, Qarabağla bağlı onların spekulyasiyaları sadəcə blefdir və bunu da ermənilərin əksəriyyəti bilir.

Onu da diqqətə çatdıraq ki, Koçaryan tərəfdarlarından ikirəqəmli iqtisadi artım, ədalət, yoxsulluğun azaldılması, insanların həyat şəraitinin, yaşayış keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı vədlər də sadəcə çox gülməli səslənir. Çünki illər öncə belə bir şəraiti yarada bilməyən birinin indiki səfil Ermənistanın vəziyyətini yaxşılaşdıracağı vədi başqa cür səslənə də bilməz. Ermənilər on il Robert Koçaryanın hakimiyyəti altında yaşadılar və həmin günləri yaxşı xaqırlayırlar. Elə bu baxımdan da cəsarətlə deyə bilərik ki, ermənilərin çox az hissəsi, çox az sayda erməni həmin günlərə qayıtmaq istəyə bilər. Yaxud çox az sayda erməni bu anti-Paşinyan cəbhəsindəki blefi başa düşməyə bilər.

Ermənistanda müxalifət qüvvələri iddia edirlər ki, guya onları revanşist adlandıran həmin ölkənin hakimiyyəti də, hətta Türkiyə və Azərbaycan da bundan bərk qorxuya düşüb. Elə bir təsəvvür yaratmaq istəyirlər ki, guya hər kəsin onlardan qorxması tam məntiqidir. Guya hər kəs narahat olmaqda haqlıdır və hətta qorxmalıdır da. Müxalifət blokundan olan Aram Vardevanyan da hələ utanmadan deyir ki, guya mövcud reallıq hələ son nəticə deyil və guya bundan sonra hələ yeni situasiya yaranacaq. Söhbətin hansı situasiyadan getdiyi, nədən getdiyi barədə konkret söz deməyən, daha doğru-

İnam Hacıyev

FOTO

Qlobal taxıl böhranı: SƏBƏB?

Dünya ərzaq qıtlığı ilə baş-başadır. Taxıl bazarında hegemonluq edən Rusiya və Ukraynanın başı müharibəyə qarışdığından və Qara dənizdə yaranmış maneələr səbəbindən dünya əhalisi ərzaq imtahanına çəkilir. Hər iki ölkənin indiyədək ticarət etdiyi Afrika bazarındakı ölkələr həyəcan təbili çalmaqdadırlar. Avropa və ABŞ-ın tətbiq etdiyi sanksiyalara cavab olaraq Rusiya Qara dənizdən daşınan taxılın dəhlizini qapadıb. Heç bir gəmi nə Ukrayna limanlarına yan ala, nə də Ukrayna gəmiləri anbarlarda yığılıb qalmış taxılı dünya bazarındakı partyorlarına çatdıra bilir.

Taxıl qıtlığının tam olaraq yaranmasını əngəlləməyə və hər iki döyüşən tərəfləri normal, konstruktiv, məhsuldar danışıqlar masasına əyləşdirmək üçün Türkiyənin atdığı addımlar həqiqətən də təqdir olunmalıdır. Amma kənar qüvvələrin təsiri nəticəsində vaxtı dəqiqləşdirilmiş görüşlər hər dəfə ertələnməli olub. Amma Türkiyənin israrlı çalışması nəticəsində BMT baş katibinin də iştirak etdiyi görüş İstanbulda nəhayət baş tutub. Rəsmi Ankara Rusiya və Ukraynanın anlaşmasına nail oldu, taxıl qıtlığını aradan qaldırmaq kimi humanitar missiyanın öhdəsindən necə gəlməyin yollarını bütün dünyaya öyrətdi....

Dünyanı aclıqdan xilas etmək missiyasını üzərinə götürən Ankara bütün vaxtlarda olduğu kimi bu müharibədə heç kimi ittiham etmir, əvəzində vəziyyətdən necə çıxmağın yollarını göstərir. Türkiyə əmindir ki, Ukraynanın buğda və taxıl məhsulları ixracının önü açılarsa, qlobal ərzaq böhranının dərinləşməsinin də qarşısı alınar.

Beləliklə rəsmi Ankara Türkiyə, Rusiya, Ukrayna və BMT təçsilçilərinin iştirakı ilə dördtərəfli görüşə birbaşa vasitəçilik etməklə, dünyanı qlobal ərzaq böhranından xilas edəcək böyük addım atdı. Türkiyə Müdafiə Nazirliyinin vasitəçiliyi ilə keçirilən dördtərəfli görüş gözlənildiyindən daha uğurlu olub. Ukrayna öz taxıl məhsullarını dünya bazarına çıxartmağa hazır olduğunu bəyan etdi. Rusiya isə bəzi beynəlxalq siyasi mərkəzlərin gözləntisinin əksinə olaraq, buna əngəl törətməyəcəyini vurğuladı. Texniki məsələlər həll olunandan sonar Ukraynadan buğda və taxıl məhsullarının dünya bazarına çıxarılması mümkün olacaq.

Əvvəl və indi

Münaqişə başlayanda Ukraynda vəziyyət yaxşı idi, iqtisadiyyatı hər rübdə demək olar ki, 7% böyüyürdü, əhalisi COVID-19-dan ağır zərbə almamışdı, taxıl, dəmir və polad ixracı üçün yaxşı beynəlxalq qiymətlər var idi, bank sektoru yaxşı idi, dövlət büdcəsinin kəsiri isə ötən il ÜDM-in 3%-dən az olub. Münaqişədən əvvəl Ukraynanın borcu ÜDM-in 50%-dən az idi ki, bu, bir çox maliyyə nazirlərinin xəyal edə biləcəyi bir şey idi. Vergilər və müavinətlər sisteminin təsirli rəqəmsallaşdırılması, Rusiyanın hərəkətlərinə baxmayaraq hələ də fəaliyyət göstərən iqtisadiyyatın həmin sektorlarından sərbəst şəkildə gəlir əldə etməyə imkan verir.

Bu gün isə vəziyyət fərqlidir. Amerika Rusiyaya qarşı sanksiyalar tətbiq etməklə yalnız Moskvanı "cəzalandıracağını" düşünürdü. Bununla belə, indi bütün dünya onlardan əziyyət çəkir, Ərzaq böhranı astanadadır.

Analitiklər hesab edir ki, Rusiya və Ukrayna digər ölkələrin iqtisadiyyatlarından çox asılıdır. Ərzaq və enerji kimi sahələrdə qlobal iqtisadiyyata əhəmiyyətli təsir göstərir. Lakin Birləşmiş Ştatlar bu regional böhranın uzun müddət davam etməsi riskini daha da artıraraq atəşə yağ tökməyə davam edir. Epidemiyanın təsirini yaşayan qlobal iqtisadiyyat hələ də köhnə yaralarını sağaltmayıb və onun çətin bərpası artıq yeni çağırışlarla, hətta böhranlarla müşayiət olunacaq.

Enerji təhlükəsizliyi riskləri güclənir

Enerji ixracı Qərbin Rusiyaya qarşı sanksiyalar tətbiq etdiyi əsas sahədir. ABŞ martın 8-də Rusiyadan neft, təbii qaz və kömür idxalını dayandıracağını elan etmişdi. Avropa İttifaqı aprelin 8-də Rusiya kömürünün idxalını dayandıracağını bildirdi və bu yaxınlarda Avropa Komissiyası neft embarqosu da daxil olmaqla yeni sanksiyalar paketi təqdim etdi.

ARXİV

Hazırda Avropa İttifaqının təbii qazının təxminən 40%-i, neftin 30%-i və kömür idxalının təxminən 20%-i Rusiyadan gəlir. Moskvaya qarşı durmadan artan və uzunmüddətli enerji sanksiyaları dünyanı qlobal enerji təhlükəsizliyi ilə bağlı həyəcan təbili çalmasına səbəb olub

Rusiya qlobal enerji bazarında əsas oyunçudur və qlobal kömür, neft və təbii qaz ixracının müvafiq olaraq 18%-ni, 11%-ni və 10%-ni təşkil edir. Hazırda Avropa İttifaqının təbii qazının təxminən 40%-i, neftin 30%-i və kömür idxalının təxminən 20%-i Rusiyadan gəlir. Moskvaya qarşı durmadan artan və uzunmüddətli enerji sanksiyaları dünyanı qlobal enerji təhlükəsizliyi ilə bağlı həyəcan təbili çalmasına səbəb olub.

Birincisi, enerji resurslarının axını məhduddur və tədarük zəncirindəki xaos dünya və xüsusilə Avropa iqtisadiyyatının fəaliyyətinə təzyiqi artırıb. Norveçin Rystad Energy şirkəti proqnozlaşdırır ki, Rusiya tədarükləri dayandırarsa, Avropa illik 155 milyard kubmetr qaz defisiti ilə üzləşəcək.

Qida böhranı gəlir

Rusiya və Ukrayna arasında uzun sürən gərginlik ərzaq təminatında ciddi risklərə səbəb olub. Ümumdünya Ərzaq Proqramının icraçı direktoru David Beasley Rusiya-Ukrayna böhranını "digər fəlakətləri daha da gücləndirən fəlakət" adlandırır. Qlobal kənd təsərrüfatı ticarətində Rusiya və Ukraynanın çəkisini nəzərə alaraq, getdikcə daha çox beyin mərkəzləri və media "ərzaq böhranı" haqqında danışır, onun dünyaya təsirinin bütün gözləntiləri üstələyə biləcəyini və zərərli təsirinin əsasən üç aspektdə təcəssüm etdiriləcəyini düşünür.

Birincisi, o, istehsalı ciddi şəkildə bloklayır və taxıl istehsal gücünü azaldır

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının statistikasına görə, Rusiya və Ukrayna müvafiq olaraq dünyanın beşinci ən böyük buğda ixracatçısıdır. Bu iki ölkənin birlikdə arpa, buğda və qarğıdalı üzrə dünya tədarükünün 19%-i, 14%-i və 4%-i - ümumilikdə dünya taxıl ixracının üçdə birindən çoxu payına düşür. Birlikdə, son üç ildə Rusiya və Ukrayna dünya buğda ixracının təxminən 30%-ni, qarğıdalı ixracının 20%-ni və günəbaxan yağı ixracının yarıdan çoxunu təşkil edib.

Məsələn, "Avropanın çörək səbəti" olan Ukraynanı götürək. Böhran bir neçə ay əvvəl əkilən buğdanın məhsulunu mümkünsüz etdi, qarğıdalı və günəbaxanı gübrələmək imkanı yox idi, sadəcə böhranın əvvəlində səpildi. Bazar iştirakçıları Ukraynada hazırkı taxıl istehsalının 50%-dən çox azala biləcəyini proqnozlaşdırırlar.

Rusiya dünyanın aparıcı gübrə istehsalçısıdır və qlobal istehsalın 13%-ni təşkil edir. Ondan gübrələrin ixracı ABŞ-ın sanksiyaları səbəbindən məhdudlaşdırılıb və bu, onların dünya qiymətlərinin kəskin artmasına səbəb olub. Braziliya və ABŞ kimi böyük kənd təsərrüfatı ölkələrində fermerlər gübrələrdən istifadəni azaltmaq məcburiyyətində qalıblar və bu, gələcək məhsullara təsir göstərə bilər.

İkincisi, ticarət axınını pozur və ərzaq inflyasiyasını gücləndirir

Rusiya-Ukrayna münaqişəsi limanları sıradan çıxardı və Qərbin sanksiyaları taxıl ixracını ciddi şəkildə əngəllədi, bu da qlobal ərzaq qiymətlərinin artmasına səbəb oldu. Bəzi Avropa ölkələrində un, yemək yağı, tərəvəz konservləri və digər zəruri məhsullar məhdud miqdarda satılır və qalxan qiymətlər bəzi Yaxın Şərq ölkələrin sakinlərini qida çatışmazlığı ilə baş-başa qoyur.

Bahalaşmadan söz düşmüşkən, az inkişaf etmiş ölkələrdə vəziyyət daha pisdir. Dünya əhalisinin 35%-dən çoxu buğda yetişdirir, Misir, Türkiyə, Banqladeş və İran isə buğdanın 60%-dən çoxunu Rusiya və Ukraynadan idxal edir. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru Qu Dongyu bildirib ki, dünyanın 50-yə yaxın ölkəsi və regionu Rusiya və Ukraynadan, o cümlədən Afrika və Asiyanın bəzi zəif inkişaf etmiş və ya aşağı gəlirli ölkələri də daxil olmaqla, buğda tədarükündən böyük dərəcədə asılıdır.

Üçüncüsü, proteksionizmi təşviq edir və tədarük zəncirinin pozulmasını gücləndirir

Daxili tədarük çatışmazlığına və qiymətlərin artmasına cavab olaraq bəzi böyük kənd təsərrüfatı ölkələri bir-birinin ardınca ixrac məhdudiyyətləri tətbiq edirlər. Beynəlxalq Qida Siyasəti Tədqiqat İnstitutunun məlumatına görə, Rusiya ilə Ukrayna arasında artan gərginlikdən sonra, aprelin sonunda ərzaq ixracına nəzarət tətbiq edən ölkələrin sayı 23-ə yüksəlib. Aprel və may aylarında dünyanın ən böyük palma yağı istehsalçısı İndoneziya və dünyanın ikinci ən böyük buğda istehsalçısı olan Hindistan bu məhsulların ixracını dayandırdığını açıqlayıb.

Dünya Bankının Şərqi Asiya və Sakit Okean İnkişaf Araşdırma Qrupunun aparıcı iqtisadçısı Aaditya Matu hesab edir ki, hazırkı qlobal ərzaq ticarəti "məhbus dilemması"ndadır və ərzaq ixracını məhdudlaşdıran bəzi ölkələr nəinki öz ərzaq qiymətlərini aşağı salmağa kömək edəcək, həm də qlobal ərzaq qiymətləri inflyasiyasının artmasına səbəb olur.

Sosial iğtişaş riskinin artması

Ərzaq və enerji milli iqtisadiyyat və əhalinin rifahının yaxşılaşdırılması ilə sıx bağlıdır və bu sahələrdə əkiz şoklarla bağlı sosial riskləri qiymətləndirmək olmaz. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Ümumdünya Ərzaq Proqramı və Ümumdünya Ticarət Təşkilatının aprel ayında yaydığı birgə bəyanata görə, ərzaq məhsullarının qiymətinin artması və tədarükdə fasilələr bir çox ölkələrdə sosial gərginliyi ciddi şəkildə artıra bilər.

Mart ayında epidemiyadan və Rusiya ilə Ukrayna arasında böhrandan əziyyət çəkən Cənubi Asiya ölkəsi Şri-Lanka iqtisadi böhranla üzləşdi. Təchizat çatışmazlığı, bahalaşan qiymətlər, enerji çatışmazlığı və yerli valyutanın devalvasiyası ictimai etirazlara səbəb oldu və ölkə prezidenti aprel və may aylarında iki dəfə fövqəladə vəziyyət elan etdi. Sonda isə kreslosunu itirdi, amma bu, ölkədə ərzaq bolluğu yaratmadı.

Afrikada da vəziyyət o qədər də nikbin deyil. BMT-nin baş katibi Antonio Quterreş bu ayın əvvəlində Rusiya və Ukrayna arasındakı gərginliyin Afrikada ərzaq, enerji və maliyyə sahəsində "üçlü böhranı" daha da gücləndirdiyini və bunun bəzi regionlarda sosial iğtişaşlara səbəb ola biləcəyini söyləyib.

Hətta nisbətən çiçəklənən Avropada insanların rifahının getdikcə böhranla əvəz ediləcəyi proqnozlaşdırılır. Yanacağın bahalaşmasına etiraz olaraq Barselona Taksi sürücüləri Sənaye Assosiasiyası və İspaniya Yük Maşınları Sürücüləri İttifaqı yerli malların və xammalların tədarükünü dayandıraraq yürüşlər və tətillər təşkil ediblər.

Son aylarda beynəlxalq təşkilatlar və qurumlar dünya iqtisadiyyatının və ticarətin artımı ilə bağlı proqnozlar kimi əsas göstəriciləri aşağı salıblar. Beynəlxalq müşahidəçilər hesab edir ki, ABŞ-ın Rusiyaya qarşı sanksiyalarda israrlı olması səbəbindən Moskva ilə Kiyev arasındakı gərginliyə "oduna yağ tökmək" effekti yaradır ki, bunun da əvəzini bütün dünya ödəyir.

V.VƏLİYEV

Qarabağın incisi toy-büsata bürünüb

28 illik zamandan sonra Şuşa yenidən öz həyatına qovuşdu. Erməni işğalından azad olan qədim şəhər azad nəfəs aldı. Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə müzəffər ordumuz 44 günlük Vətən müharibəsində həsrətində olduğumuz torpaqlarımızı geri qaytardı. Buranın hər qarışında qan izi olduğundan Şuşa bizim üçün bir and yerinə, müqəddəs məkana çevrilib.

Bu gün Şuşa yeni bir ab-havadadır. Abadlıq-quruculuq işlərinin, yeni infrastrukturun yaradılması, tarixi-mədəni dini abidələrin bərpa və inşası və s. Şuşada böyük bir həyatın canlanmasından xəbər verir. Şuşada üçrəngli Azərbaycan bayrağının dalğalandırılması, Novruz bayramında Şuşada yandırılan tonqal, kəsilən qurbanlar bu torpaqda Böyük Qayıdışın işığı idi. İndi toy-büsata bürünüb Şuşamız. Qısa bir zamanda abadlıq-quruculuq işlərinə başlanıldı. Ötən müddət ərizində böyük işlər görüldü və bu gün abadlıq-quruculuq işlərinin sürəti artıb. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, yarımstansiya tikildi. Zəfər yolu çəkildi, suyun verilməsi bərpa olundu. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Tezliklə, Natəvan bulağı bərpa olundu və "Xarıbülbül" hoteli istifadəyə verildi. Əsrlərin yaddaşı var bu diyarda. Öz köklü-şəcərəli insanlarına qucaq açıb.

ŞUŞAMIZDA YENİDƏN VAQİF POEZİYA GÜNLƏRİ

Bu məkandan azad olunmuş Şuşadan dünyaya milli musiqimiz səs saldı. "Xarıbülbül" festivalı bütün dünyaya səs saldı. Şuşamız bayram libasını geyindi. Gözəl ifa, klassik musiqi bütün aləmə dolaşdı. İşğaldan azad olunan Şuşa yenidən toy-büsata büründü. Xalqın milli və klassik musiqisi dağları-dərələri aşdı. Hər kəsin könlü xoş oldu. Ruhu bu məkanlarda dolaşan insanlar azad, rahat nəfəs aldılar. Şuşada ilk dəfə Milli Musiqi Günü çərçivəsində Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının konserti keçirildi. Bu konsert ötən ilin avqustun 29-da Azərbaycan Prezidentinin iştirakı ilə açılışı olan Üzeyir bəyin heykəli qarşısında baş tutdu. Bülbülün, Natəvan, Üzeyirin və digər sənətkarların ruhu mənən rahatlandı. Şuşalılar Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün heykəlləri önünə gül dəstələri qoyaraq ziyarət etdilər. Bundan qürurverici nə ola bilərdi? Uzun illər idi ki, heykəlləri güllələnmiş Xan qızı, Üzeyir bəy, böyük nəğməkar Bülbül öz doğma yurdlarına qayıdacaqları günü gözləyirdilər. Belə ki, donmuş üzlər hərəkətə gəldi, uzaq kimi görünən yollar bir addımlıqda oldu. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Cansız heykəllərə güllə ataraq qiymətli heykəlləri, milli memarlıq abidələrini, muzey əşyalarını güllələran etmişdilər. Prezident İlham Əliyev hələ Vətən müharibəsindən öncə qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Üzeyir Hacıbəylinin, Natəvanın, Bülbülün büstləri Şuşaya qaytarılacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrildi. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərində bu qədim Azərbaycan şəhərinə gələn qonaqları salamlayır. Bu gün Üzeyir Hacıbəylinin, Xurşidbanu Natəvanın, Bülbülün Şuşadakı büstləri öz məkanlarında rahat nəfəs alır. Azad Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəli də ucaldılıb.

VAQİF POEZİYASININ FƏLSƏFİ FİKİR YÜKÜ

Ötən il Şuşada böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günlərinin açılışı oldu. Bu tədbir ölkənin həyatında əlamətdar hadisəyə çevrildi. Vaqif Poeziya Günləri, əslində, sözümüzün, şeirimizin, ədəbiyyatımızın bayramıdır. Yenidən bu il Şuşamız toy-bayram libasına büründü. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin (AYB) təşkilatçılığı ilə iyulun 14-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Vaqif Poeziya Günləri başlayıb. Vurğulamaq yerinə düşər ki, Molla Pənah Vaqifin adının UNESCO-nun "2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş bu qüdrətli söz ustasının yaradıcılığındakı humanist dəyərlərə verilən yüksək qiymətdir. 2017-ci il, həmçinin Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY tərəfindən "Molla Pənah Vaqif İli" elan edilərək, bu çərçivədə tədbirlər keçirilib. Uzun illərdir dövlətimiz tərəfindən tanınmış şəxsiyyətlərin yubileylərinin yüksək səviyyədə qeyd edilməsi, əsərlərinin nəşri və təbliği Molla Pənah Vaqif irsini də əhatə edib. Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" 2017-ci il 12 yanvar tarixli Sərəncamına əsasən, ölkəmizdə şairin xatirəsinə həsr edilmiş elmi-praktik konfranslar, rəsm sərgiləri və digər bu qəbildən olan silsilə tədbirlər keçirilib. Dünya miqyasında Vaqif kimi sənətkarın təbliği onun sənət dünyasının fikir yüküdür.

"QÜRUR DOLU TƏSİRLİ ANLAR. ŞUŞA. 2022"

Qırx illik tarixi olan Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra artıq ikinci dəfədir təşkil olunur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən ikinci Vaqif Poeziya Günləri ilə bağlı paylaşımında belə yazıb: "Vaqif Poeziya Günləri. Şuşa. 2022", "Qürur dolu təsirli anlar. Şuşa. 2022". Bu tarix əlbəttə ki, Azərbaycan tarixinə, mədəniyyətinə yazılan silinməz bir səhifədir. Zaman keçəcək Şuşa tarixi vərəqləndikcə bu günlərin qururu hər kəsə mənəvi qida verəcək.

Mədəniyyət və incəsənət xadimlərinin, Azərbaycan Yazıçılar Birliyinin üzvlərinin, gənc yazıçılar, şairlər və qazilərin iştirak etdikləri Poeziya Günləri çərçivəsində keçirilən ilk tədbir "Qarabağ" mehmanxanasının qarşısında təşkil olunan kitab sərgisi oldu. Sərgidə 100-dən çox şair və yazıçının kitabları nümayiş etdirilir. Kitab sərgisində ayrı-ayrı yazıçıların kitablarının təqdimatı keçirilib. Azərbaycan Yazıçılar Birliyinin təşəbbüsü ilə hazırlanan "Qarabağ dastanı, otuz ilin həsrəti - 44 günün Zəfəri" və Şuşada keçirilmiş Vaqif Poeziya Günləri barədə "Bütün yollar Şuşaya aparır..." kitablarının təqdimatı olub. Kitablar qələbəmizin ilk günlərindən hazırlanmağa başlanıb. Kitabda azad olunmuş Qarabağdan olan hər bir yazıçı öz rayonları haqqında xatirələrini yazıb.

HƏR AĞACI, AXAR SUYU MİLLİ MUSİQİNİN AVAZI İLƏ YOĞRULUB

Vurğulamaq yerinə düşər ki, Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı baş tutub. Səfər çərçivəsində Ümummilli Lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verilib. Müasir Azərbaycan ədəbiyyatı tarixində öz bənzərsizliyi ilə seçilən Vaqif Poeziya Günləri həmin tarixdən etibarən 1991-ci ilədək hər il şairin vətəni Qazaxdan başlayıb, Şuşanın əsrarəngiz Cıdır düzündə yekunlaşdırılıb.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun zəfəri nəticəsində Şuşa şəhəri erməni işğalından azad edildikdən sonra Vaqif Poeziya Günləri yenidən öz yurdunda - mədəniyyət paytaxtımızda keçirilir.

Əlbəttə ki, Şuşa musiqi beşiyidir. Buranın hər ağacı, hər qayası, axar suyu bu musiqinin avazı ilə nəfəs almış, bu musiqi qayaların, divarların, lal daşların da yaddaşına hopmuşdur. Bu gün artıq həsrətlə gözlədiyimiz Şuşamızın, "Qafqazın Konservatoriyası"nın torpağındayıq. Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşada. Burada "Xarıbülbül" musiqi festivalının və Vaqif Poeziya Günlərinin bərpa edilməsi Azərbaycanın mədəni həyatının təntənəsinə çevrilib. Bu gün Vaqifin ruhu şaddır. Poeziya günləri çərçivəsində çıxışlar, ədəbi simpoziumlar, sərgilər təşkil olunur. Artıq bir neçə tədbir reallaşıb. Vaqif Poeziya Günləri təkcə ədəbiyyatdan, sənətdən deyil, Qarabağ tarixindən də dünyaya bir mesajdır.

Zümrüd BAYRAMOVA

SES

Qafqazın 140 yaşlı qocaman sənət ocağı

Dövlət başçısının Sərəncamı ilə İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyi qeyd ediləcək

Azərbaycanın qədim mədəniyyətə və zəngin ədəbi irsə malik olan şəhərlərindən biri, İrəvan ədəbi-estetik fikrimizin inkişafında da böyük rola malikdir. Əbəs yerə deyil ki, XIX əsrin sonlarında bir müddət İrəvanda işləyən görkəmli Azərbaycan ədəbiyyatşünası və maarif xadimi Firudin bəy Köçərli İrəvanı üləmalar, fazillər və şairlər şəhəri adlandırmışdı. Qeyd edək ki, çar Rusiyası dövründə İrəvan ədəbi-mədəni irsinin inkişafında Firidun bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, Eynəli bəy Sultanov kimi qabaqcıl fikirli ziyalıların əvəzsiz rolu olmuşdur.

Müxtəlif vaxtlarda İrəvanda olmuş səyyahlar, salnaməçilər, tədqiqatçılar İrəvan şəhərini Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi kimi təsvir etmişlər. Mənbələrdə göstərilir ki, XIX əsrin əvvəllərində İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra İrəvanın imkanlı və ziyalı elitasının xeyli bir qismi şəhəri tərk etmişdir. Tarixin müxtəlif dönəmlərində dövrünün tanınmış simaları soyqırıma və deportasiyaya məruz qalmış, dünyanın bir sıra ölkələrinə - Şimali Azərbaycan, Türkiyə, Orta Asiya, İran, Rusiya və digər ölkələrə üz tutmuşdular.

"ERMƏNİ DÖVLƏTİ" İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ FƏALİYYƏTİNƏ SON QOYDU

Qədim tarixi olan İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində doğulub boya-başa çatan yüzlərlə elm, mədəniyyət, incəsənət, din xadimlərinin adları Azərbaycan tarixində yer alıb. Tarixi qədim olan İrəvada 1881-ci il noyabrın 3-də tərkibində iki sinif olmaqla İrəvan Müəllimlər Seminariyasının I sinfinin açılışının olması burada təhsilə verilən önəmin bir nümunəsidir. Birinci il seminariyaya 9 müəllim, 42 şagird cəlb edilib. 1882-ci ildə seminariyanın II sinfi, 1883-cü ildə III sinfi açılmışdır. Beləliklə, Qafqazda olan bütün müəllimlər seminariyası kimi, İrəvan müəllimlər seminariyası da 4 sinifdən ibarət olmuşdur. Sənədlərdə qeyd olunur ki, İrəvan Müəllimlər Seminariyasının pedaqoji kontingentinin formalaşmasında əsasən, Qori Müəllimlər Seminariyasının məzunlarından istifadə edilmişdir. Seminariyada müxtəlif fənlər tədris edilməklə yanaşı, bir sıra peşələr - xarratlıq, cildçilik işi, tərəvəzçilik və ipəkçilik fənləri də könüllü olaraq tədris olunurdu. İrəvan Müəllimlər seminariyasının ilk buraxılışı 1884-cü ildə olmuşdur. Tanınmış simalardan Haşım bəy Vəzirov, Həmid ağa Şahtaxtinski, Tağı bəy Səfiyev, İbadulla Muğanlinski, Şamil Mahmudbəyov, Cabbar Məmmədov və başqaları İrəvan Müəllimlər Seminariyasının məzunları olmuşlar.

1918-ci ilin mayında İrəvan quberniyasının ərazisində ilk erməni dövləti - Ermənistan Respublikası qurulduqdan sonra İrəvan Müəllimlər Seminariyasının fəaliyyətinə son qoyulmuşdur. İrəvan Müəllimlər Seminariyasının direktoru V.Dobrınının 1918-ci ildə yazdığı hesabatda göstərilir ki, 1915-16-cı tədris ilində seminariyanı 19 nəfər, 1916-17-ci tədris ilində 22 nəfər, sonuncu - 1917-18-ci tədris ilində isə 23 nəfər azərbaycanlı bitirmişdir. Belə bir elm, təhsil və mədəniyyət mərkəzi olan İrəvan tarixi dövründə bir çox ziyalılar nəsli yetirmişdir. Bu nəslin yetişməsində İrəvan Müəllimlər Seminariyasının rolu müstəsnadır. 37 ilə qədər fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda İrəvan gimnaziyası və Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır.

Bildiyimiz kimi, ötən il Azərbaycan Prezidenti İlham Əliyev İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır. Regionda dünyəvi təhsil verən yeni tipli məktəbin - İrəvan Müəllimlər Seminariyası 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmişdir.

DAŞNAKLARIN HÜCUMLARI VƏ TEATRIN ACI TALEYİ

Belə bir mühitdə - İrəvan mühitində 1882-ci ildə Milli teatr sənətimizin inkişafında mühüm yer tutan İrəvan Dövlət Azərbaycan Dram Teatrı yaradılmışdır. Qafqazın qocaman sənət ocaqlarından biri olan bu teatr 1882-ci ilin əvvəllərində azərbaycanlılardan ibarət teatr truppasının göstərdiyi tamaşa ilə fəaliyyətə başlamışdır. Beləliklə, teatr tariximizə parlaq səhifələr yazmışdır. Mənbələrədə göstərilir ki, görkəmli ictimai xadim, ədəbiyyatşünas Firudin bəy Köçərlinin təşəbbüsü və yaxından köməyi ilə 1886-cı ildə dahi Mirzə Fətəli Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" əsərinin tamaşaya qoyulması İrəvan Azərbaycan Teatrının təşəkkülünə güclü təkan olmuşdur. F.Köçərli 1895-ci ildə İrəvanı tərk edir. Bundan sonra teatra 18 yaşlı Yunis Nuri rəhbərlik edir. 1896-cı ildən etibarən İrəvanda müntəzəm olaraq Azərbaycan dilində tamaşalar nümayiş olunmağa başlandı. İnqilabdan əvvəlki illərdə həvəskarlar bölgədə bir çox tanınmış pyesləri səhnələşdirdilər. 1909-cu ildə ölməz sənətkarımız Hüseyn Ərəblinski "Bəxtsiz cavan" (Ə. Haqverdiyev), "Nadir şah" (N. Nərimanov) tamaşaları ilə İrəvan teatrında çıxış etmişdir. 1912-ci ildə isə Zülfüqar Hacıbəyovun rəhbərliyi ilə İrəvan teatrında "O olmasın, bu olsun", "Əlli yaşında cavan", "Kərbəlayi Şükür xalça satan" əsərləri oynanılır. "Arşın mal alan", "Məşədi İbad" kimi məşhur tamaşalar teatrın daimi repertuarına daxil idi.

1918-ci ildə daşnakların hücumları teatrı yerindən-yurdundan eləyir. Teatrın rəhbəri və bir qrup aktyor İranın Xoy şəhərində məskunlaşdılar. Ermənilər İrəvanda kütləvi qırğınlar törədərkən aktyor truppası mühacirətə üz tutur və öz fəaliyyətini 1922-ci ildə bərpa edir. Sovet hökuməti qurulduqdan sonra 1922-ci ildə didərgin düşmüş bütün insanlar kimi, onlar da geriyə döndülər. Teatrın yenidən dirçəlməsi, inkişaf etməsi üçün yerli ziyalılardan olan Bala Əfəndiyev, Əkbər Rzayev, Rza Şeyxzadə, Abbasəli Axundov, Əşrəf Yusifzadə, Yusif Ziya, Nəsib Əfəndiyev və s. kimi milli mədəniyyət təəssübkeşləri xeyli iş gördülər. Hətta Bala Əfəndiyev öz arvadı Fatma Əfəndiyevanı teatra gətirərək ilk qadın aktrisa kimi səhnəyə çıxarmışdı. Fatma xanım həmin vaxtlar İrəvan türk qadınlar klubunun ilk müdiri idi. Əkbər Rzayev də öz arvadı Firəngiz xanımı Fatma xanımla birgə səhnəyə çıxardı.

KÜTLƏVİ DEPORTASİYA İLƏ REALLAŞAN QƏRƏZLİ SİYASƏT İRƏVAN TEATRININ DA TALEYİNDƏN YAN ÖTMƏDİ

1928-ci ildə dövlət statusu alan, 1935-ci ildən görkəmli dramaturq Cəfər Cabbarlının adını daşıyan İrəvan Dövlət Azərbaycan Dram Teatrının tarixi milli mədəniyyətimizin tərəqqisində əvəzsiz xidmətlər göstərmiş bir sıra görkəmli səhnə ustasının adı ilə sıx bağlıdır. Tariximizin dönəmlərindən bizə bəllidir ki, bu teatr da keşməkeşli yol keçmişdir. Hələ İosif Stalinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il 23 dekabr və "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi üzrə tədbirlər haqqında" 1948-ci il 10 mart tarixli qərarları ilə azərbaycanlıların Ermənistandakı ata-baba torpaqlarından kütləvi deportasiyasında reallaşan qərəzli siyasət İrəvan teatrının da taleyindən yan ötməyib. 1948-ci ildən başlayaraq İrəvan və onun ətraf rayonlarında yaşayan azərbaycanlı əhalisinin məcburi olaraq Azərbaycana köçürülmə prosesi teatra öz təsirini göstərdi və 1949-cu ildə teatr Göyçə mahalının Basarkeçər rayonuna köçürüldü. Oradakı bir illik fəaliyyətindən sonra isə teatrın işi dayandırıldı və əvəzində həmin bazada xalq teatrı təşkil olundu. Çünki həmin ərəfədə Göyçə əhalisini də "könüllü köçürmə" adı altında gecə-gündüz maşınlarda Azərbaycana - Mil, Muğan düzünə aparırdılar. Belə bir şəraitdə isə teatrın işini yenidən qurmaq və eləcə də fəaliyyətindən danışmaq çətin məsələ idi. Az sonra "köçürülmə siyasəti" dayansa da teatrın inkişafında yeni bir mərhələ açılmadı. Həmin illərdə bağlanan teatr fəaliyyətini yalnız 1967-ci ildə bərpa edə bilmiş və öz işini çətin şəraitdə davam etdirmişdir. Sovet dövründə Qafqazdakı sərhədlərin süni olaraq müəyyən edilməsi nəticəsində Ermənistan SSR-ə qatılmış tarixi Azərbaycan torpaqlarında yaşayan on minlərlə soydaşımızın Azərbaycan mədəni-ədəbi fikrinin inciləri ilə tanışlığında və milli-mənəvi dəyərlərimizə bağlılıq ruhunda tərbiyəsində İrəvan Azərbaycan Teatrı qüvvəsini əsirgəməmişdir.

ƏZƏLİ AZƏRBAYCAN TORPAQLARINDAKI HƏMYERLİLƏRİMİZİN TARİXİ TALEYİNİN BİR PARÇASI

Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində azərbaycanlılar öz doğma yurdlarından xüsusi qəddarlıqla didərgin salındıqları zaman İrəvan Dövlət Azərbaycan Dram Teatrı fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı. 1988-ci ilin payız aylarında teatr Azərbaycanın Neftçala rayonunda qastrol tamaşaları göstərdiyi zaman səfərin yekun günü xəbər gəlir ki, İrəvan ərazisindəki bütün azərbaycanlılar öz yurd-yuvalarından qovulublar. Teatr erməni tapdağında qalmışdı. Teatr deportasiya olunduqdan sonra Bakıda Akademik Milli Dram Teatrının nəzdində teatr-studiya kimi fəaliyyətini davam etdirir və Abşeron mədəniyyət sarayında yerləşdirilir. Teatr yenə də öz dəst-xətti ilə seçilir və yaradıcılıq uğurları ilə teatrsevərlərin diqqətini daim cəlb edir.

Çox keçmir ki, teatra yenidən dövlət statusu verilir. 16 oktyabr 2007-ci ildə prezidentin sərəncamı ilə teatrın yubileyi Bakıdakı Azərbaycan Dövlət Musiqili Komediya Teatrında qeyd olunur. Yerevan Dövlət Azərbaycan Teatrı Azərbaycanda, Gürcüstanda, Dağıstanda və Türkiyədə tamaşalarını göstərir. İrəvanda yaradılan Azərbaycan dilində ilk teatr öz tarixi dövrünə silinməz izlər həkk edib. Azərbaycanlıların Ermənistandan deportasiyası ilə əlaqədar hal-hazırda Bakıda fəaliyyət göstərən dövlət teatrlarından biridir. Azərbaycan Prezidenti İlham Əliyev "İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. Azərbaycanın görkəmli səhnə ustalarından bir çoxunun yaradıcılıq taleyi peşəkar milli teatrımızın ayrılmaz tərkib hissəsinə çevrilən bu qocaman sənət ocağı ilə sıx bağlıdır.

Sərəncama əsasən, İrəvan Dövlət Azərbaycan Dram Teatrının xalqımızın mədəni-ictimai həyatında özünəməxsus rolunu nəzərə alınaraq Teatrının 140 illiyinə dair tədbirlər planı hazırlanıb həyata keçiriləcəkdir. Ötən müddətdə ənənəvi repertuarını rəngarəng mövzularda yeni-yeni əsərlərlə daha da genişləndirmiş və bir sıra yaradıcılıq uğurları qazanmışdır. Keşməkeşli yol keçmiş və dəfələrlə erməni vandalizminə məruz qalmış teatrın salnaməsi əzəli Azərbaycan torpaqlarındakı həmyerlilərimizin tarixi taleyinin bir parçasıdır.

Zümrüd BAYRAMOVA

ZİRVƏYƏ YÜKSƏLİŞİN BAŞLANDIĞI GÜN!

Bu gün dünyada elə bir xalq tapmaq olmaz ki, tarixinin taleyüklü və mürəkkəb mərhələsində onun taleyində müstəsna rol oynamış, dövlətçilik ənənələri formalaşdırmış milli lideri olmasın. Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına Tanrının bəxş etdiyi böyük şəxsiyyətdir.

MUXTAR NAĞIYEV, YAP Səbail rayon təşkilatının sədri

Və xalqımız ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 14 iyul, 1969-cu ildə hakimiyyətə gəlməsinin 53-cü ildönümünü qalib xalq kimi qarşılayır. Məhz bugünkü günün memarı olan Ümummilli Liderin arzuları artıq həyata keçirilib. Bütün fəaliyyətini Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına həsr edən Ulu Öndərin yarımçıq qalmış ideyalarını dahi şəxsiyyətin siyasi məktəbinin ən layiqli yetirməsi Prezident İlham Əliyev reallaşdırdı. Rəşadətli Azərbaycan Ordusu xalqımızın 30 illik yurd həsrətinə birdəfəlik son qoydu. Ötən il noyabrın 10- da Ermənistan dövləti təslim olduğunu rəsmən təsdiqlədi. Azərbaycan qalib Sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyev siyasi strategiyası sayəsində öz gücünə torpaqlarımızı işğaldan azad etdi. Bununla da ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi. Ümummilli Lider illər öncə böyük uzaqgörənliklə deyirdi: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır".

Həmin vaxt 17 ildən sonra yetişdi. Ümummilli Liderin qoyduğu möhkəm təməl əsasında Azərbaycan ildən-ilə gücləndi, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirdi, qüdrətli ordu yaratdı. Məhz iqtisadi güc, rəşadətli ordumuz düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın döyünən ürəyi olan Şuşada qürurla dalğalanmağa başladı. Dəmir yumruqla beli qırılan, başı əzilən düşmən kapitulyasiya aktını imzalamağa məcbur oldu, ərazi bütövlüyümüz təmin edildi.

53 İL ÖNCƏ BAŞLANAN BU YOL ULU ÖNDƏRİMİZ HEYDƏR ƏLİYEVİN XALQI, MİLLƏTİ İLƏ BÜTÜNLƏŞMƏSİ, BÜTÖVLƏŞMƏSİ YOLU OLUB

Tarix ən ədalətli hakimdir. Bu gün yaxın tariximizə diqqətlə nəzər yetirdikdə bugünkü inkişafımız, sabitlik və xoş güzəranımız üçün kimə borclu olduğumuzu yaxşı anlayırıq. Və 1969-cu il iyulun 14-ü ən yeni tariximizin məhz belə şərəfli, müqəddəs səhifəsi, müasir Azərbaycan tarixində yeni eranın başlanğıcı sayılan həmin gün böyük dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etməyə başlaması kimi son dərəcə qiymətli bir hadisə ilə əbədiləşmişdir. Həmin dövrdə Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni durumu heç də ürəkaçan deyildi. O zamankı sovetlər birliyinin ən ucqar respublikalarından biri kimi səciyələnən Azərbaycanda idarəetmədə çoxlu nöqsanlara yol verilmiş, iqtisadiyyat geri qalmış, sosial-mənəvi mühit şəffaflıqdan uzaq düşmüşdü. Belə bir vaxtda Heydər Əliyevin respublikanın ali vəzifəsinə seçilməsi tariximiz və taleyimiz, Vətənimiz və xalqımız üçün sözün əsl mənasında dönüş və xilas, möhtəşəm tərəqqi və yüksəliş erasının əsasını qoydu. Çünki Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir. Çünki ulu öndər hakimiyyətdə olduğu 35 il müddətində xalqının tarixi mənafeyi uğrunda əzmlə mübarizə aparmış, ictimai-siyasi proseslərdə daim özünü real güc mərkəzi kimi göstərmişdir.

Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlaması, Azərbaycanın isə onun simasında özünə yeni fəaliyyət metodlarına malik rəhbər tapması hər ikisinin yüksəlişinin, xalqın da xoşbəxtliyinin başlanğıcı oldu! Azərbaycana rəhbərliyə başladığı gündən hər bir vətəndaş, bütövlükdə xalq ona arxa duran, mənafeyini qoruyub müdafiə edən, haqsızlıq və qanunsuzluqla barışmayan böyük qəlbli insanın hakimiyyətə gəldiyini düşünürdü. Hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyevin rəhbərliyi altında respublikada həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək gələcək müstəqilliyin təmin olunması üçün zəmin hazırladı. Ulu öndər Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dövrləri xatırlayarkən deyirdi: "Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da sən xalqın, millətin üçün nə edirsən. Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı".

Azərbaycan sosial-iqtisadi vəziyyətinə görə SSRİ-nin tərkibində olan 15 respublika sırasında sonuncu yerlərdə qərarlaşırdı. Bütün göstəricilər üzrə belə idi. Amma Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra ilk 5 illikdə inkişaf baş verdi. Belə ki, 1970-1982-ci illərdə respublikada 250 yeni müəssisə, istehsalat və sex tikilmiş, neftayırma sənayesi müəssisələri tamamilə yenidən qurulmuş, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları inşa olunmuşdur. Nəticədə, göstərilən müddətdə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə artmışdır. 1970-1982-ci illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə çoxalmış, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmişdir. Əsaslı dövlət vəsaiti qoyuluşunun 1 manat artımı hesabına əlavə olaraq 3,5 manatlıq məhsul alınmışdır. Göstərilən dövrdə milli gəlir 2,6 dəfə çoxalmışdır. Azərbaycan büsbütün yenidən tikilib qurulmuş, kənd və qəsəbələr salınmış, fabrik və zavodlar tikilmiş, yaşayış məntəqələrinin siması tamamilə dəyişmişdir. Yetmişinci illərədək Azərbaycan kəndi əsasən çiy kərpicdən və palçıqdan tikilmiş komalardan ibarət idi. Kəndlinin gəliri az olduğundan güzəranı ağır keçirdi. Kənd təsərrüfatının yüksəlişi bu sahədə inqilabi dəyişiklik yaratdı. Yeni texnika və aqrotexniki qaydaların genişmiqyaslı tətbiqi hesabına əmək məhsuldarlığı və məhsul istehsalı bir neçə dəfə artdı, təsərrüfatların və əməkçilərin gəliri qat-qat çoxaldı. Kəndlinin güzəranı və məişət şəraiti dəyişdi. Azərbaycan kəndi palçıq komalardan qurtularaq simasını dəyişdi. O vaxtdan həyətində minik avtomobili, ikimərtəbəli ağ mişar daşından evi, məişətində hər növ elektrik cihazları olan kəndli ailələri Azərbaycan kəndlisini xarakterizə edən başlıca əlamətə çevrildi. Bu gün elə bir kənd tapılmaz ki, orada Heydər Əliyev dövrünü xatırladan bir neçə "abidə"yə rast gəlinməsin. Ölkə paytaxtı Bakı şəhəri də yeni mikrorayonlar, park və xiyabanlar, küçə və meydanlar hesabına böyüyərək gözəlləşdi. "Gülüstan" və "Respublika" sarayları, Prezident sarayı və Milli Məclisin binası, "Moskva", "Azərbaycan", "Abşeron" mehmanxanaları, Əl oyunları sarayı və Olimpiya İdman Kompleksi, metro stansiyaları və digərləri həmin dövrdə tikilmiş, N.Nərimanova, C.Cabbarlıya, Nəsimiyə, H.Cavidə və digər görkəmli həmvətənlərimizə abidələr qoyulmuş, onlarla ədəbiyyat və incəsənət xadiminə, sənətkara fəxri adlar, dövlət mükafatları verilmişdir.

Ulu öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi, ordu sıralarında da milli kadrların yetişməsinə və yerləşməsinə çalışırdı. Ölkəyə birinci rəhbərliyi dövründə Azərbaycanda fəaliyyət göstərən hərbi məktəblərlə maraqlanan ümummilli lider orada nəinki təhsil alanların, hətta dərs deyənlərin sırasında belə azərbaycanlıların tək-tük olduğunu bilmişdi. Çox keçmədən Ulu öndərin təşəbbüsü və şəxsi himayəsi altında Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb açıldı. Tezliklə bu məktəb böyük şöhrət qazandı. Yeniyetmələr həvəslə burada oxumağa gəlir, sonra təhsillərini keçmiş SSRİ-nin müxtəlif ali hərbi məktəblərində uğurla davam etdirirdilər. Qarabağ uğrunda döyüşlərdə məktəbin müdavimləri böyük şücaət göstərdi, bir çoxu Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görüldü. Müstəqillik dövründə milli ordu quruculuğunda vaxtilə C.Naxçıvanski adına hərbi təmayüllü məktəbi bitirən zabitlərin əməyi böyük olmuşdur. Onlar bu gün də orduda ləyaqətlə xidmət edir, Heydər Əliyev ideyalarına sadiqliklərini nümayiş etdirirlər.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ZƏNGİN DÖVLƏTÇİLİK İRSİ DƏRİNDƏN ÖYRƏNİLİR, GENİŞ TƏBLİĞ OLUNUR

Bu gün Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsi dərindən öyrənilir, geniş təbliğ olunur. Xüsusilə də, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu prosesdə müstəsna rolunu xüsusi vurğulamaq gərəkdir.

Ulu Öndərin zəngin mənəvi irsini, Onun azərbaycançılıq ideyasını gənc nəsillərə aşılamaq, Ümummilli Liderin qurub-yaratdığı müstəqil Azərbaycanın daha da çiçəklənməsində yaxından iştirak etmək, insanlara daim kömək əli uzatmaq, xeyirxah işlər görmək Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban Əliyevanın fəaliyyətinin əsas qayəsini təşkil edir. Bir sözlə, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti Ümummilli Liderimizin ideyalarına əsaslanır, Azərbaycanın inkişafına, milli məqsədlərin həyata keçirilməsinə müstəsna töhfələr verir. Fondun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir. Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz dəyərli - layiqli töhfəsini verir. Heydər Əliyev Fondu, eyni zamanda, milli mədəniyyətimizin qorunması və inkişafı istiqamətində genişmiqyaslı fəaliyyət göstərir, eləcə də Azərbaycanın zəngin tarixi və mədəni irsi dünya ictimaiyyətinə çatdırılır.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ARZULARINI GEÇƏKLƏŞDİRƏN QALİB LİDER İLHAM ƏLİYEV

"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu, sadəcə, Heydər Əliyevin taleyüklü məsələləri inandığı bir insana həvalə etməsi deyildi. Burada dahi liderin uzaqgörənliyi də aydın sezilir. Ulu öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətində əksini tapan bu fikirlər Prezident İlham Əliyevin son 19 ildə gördüyü işlərə, Azərbaycanın əldə etdiyi uğurlara, ən əsası bugünkü qələbəmizə bələdçilik edir: bugünkü qələbənin məntiqi əsası, bünövrəsi və onu yaradan fəlsəfə Heydər Əliyevin fəaliyyətinin məhsuludur.

Prezident İlham Əliyev xalqımızın ən böyük arzularını gerçəkləşdirən Şəxsiyyət kimi, eyni zamanda, Müzəffər Liderlik adını əbədi olaraq tarixə yazdı. O, son 200 ildə tarixi torpaqlarını ardıcıl şəkildə itirməyə məhkum edilmiş Azərbaycan xalqının milli mənliyini, mənəvi ruhunu və siyasi gücünü özünə qaytardı, tarixi ədaləti bərpa etdi. Məhz bu tarixi həqiqətləri incələdikdən sonra vurğulaya bilərik ki, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin ardıcıl, uğurlu siyasəti nəticəsində dövlətçilik ənənələrimiz yenidən dirçəldi və inkişaf etməyə başladı. Eyni zamanda, bu gün Azərbaycan dövləti İlham Əliyevin Liderliyi sayəsində dünyada qalibiyyət və zəfərlər yazan, öz gücü ilə ərazi bütövlüyünü bərpa edən qüdrətli ölkə olaraq tanınmaqdadır. Cənab İlham Əliyev sübut etdi ki, heç bir qüvvə Azərbaycanı haqq yolundan, torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizədən saxlaya bilməz.

8 noyabr 2020-ci il. Həmin unudulmaz tarix-Şuşanın erməni işğalından azad olunduğu gün Prezident İlham Əliyev Ulu Öndərin Fəxri Xiyabandakı müqəddəs məzarını ziyarət etdi və sonra Şəhidlər Xiyabanından xalqa müraciət edərək tariximizə qızıl hərflərlə həkk olunacaq bu sözləri dedi: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan!".

Bəli, bu dövlətçilik tariximizlə yanaşı, həm də dünyanın yeni tarixinə yazılan bu qalibiyyət simvolunda xalqımızın iki övladının - Ulu Öndər Heydər Əliyevin və Böyük Sərkərdə, Prezident İlham Əliyevin adlarının qızıl hərflərlə həkk olunması artıq danılmaz bir gerçəklikdir - ATA vəsiyyətinin və OĞUL vədinin yerinə yetirilməsi gerçəkliyi! Və bu gün Azərbaycan ən yüksək zirvələri fəth etməklə ulu öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Və bu gün müqəddəs qələbə günündə hamımız Ulu Öndərin məzarını ziyarət edəcək, onun ruhuna dualar oxuyacağıq. Çünki çox böyük qürur hissi keçiririk ki, əzəli, qədim Azərbaycan torpaqlarına, Qarabağa qayıdırıq, çünki Qarabağ Azərbaycandır!

Bəli, Ruhun şad olsun, Ulu Öndər, Qarabağ Azərbaycandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəsində "Dağlıq Qarabağ" problemi yoxdur! Prezident İlham Əliyev bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır: "Bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

Və bu gün fəxr edirik ki, dahi öndərimizin ideyaları yaşayır və geniş şəkildə inamla Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir və Heydər Əliyevin nurlu xatirəsi bundan sonra da qəlblərdə əbədi yaşayacaqdır.

TƏHLİL

Bir əsrə yaxın ömrün sənət dünyası

Kimlər gəldi, kimlər getdi, bu dünyadan, bu dünyadan!.. Arif olan nakam getməz, bu dünyadan, bu dünyadan... Arif insan idi, ona görə də bu dünyadan nakam köçmədi. Sənət dünyası ilə həzin musiqilərini zaman-zaman yaşatmağa nail oldu. İstedadı ilə zəhməti onu ucalığa yüksəltdi. Bu, hamının sevilən müğənnisi olan Mirzə Babayevdir. Müğənni, memar, aktyor. Hər bir sahədə özünü doğruldan insan. Bütün zamanlarda xatırlanan və dinləyicilərin sevgisini qazanan müğənni.



Azərbaycan estrada musiqisinin banilərindən biri Mirzə Babayevin 16 iyul doğum günüdür. 1913-cü ildə dünyaya gələn Mirzə Babayev ilk təhsilini Sənaye İnstitutunun memarlıq fakültəsini alıb. Mirzə Babayev Bakıda və Azərbaycanın digər şəhərlərində olan bir çox binaların və muzeylərin layihə müəllifidir. Mirzə Babayev müğənnilik fəaliyyətinə 40-cı illərin əvvəlində müharibədən qayıdan zaman, görkəmli bəstəkar Tofiq Quliyevin rəhbərlik etdiyi caz orkestrində başlayıb. 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına, məşhur müğənni Bülbülün sinfinə daxil olub. Mirzə Babayev 30-dan artıq filmdə rol alıb. Uzun illər Azərbaycan Dövlət Filarmoniyasında çalışıb. Azərbaycan respublikasının əməkdar artisti, xalq artisti, iki dəfə "Humay" mükafatı laureatı olub. Ömrünün 90-cı ilində dünyasını dəyişib. Belə bir tərcümeyi-hala malik müğənninin fəaliyyəti bu illərin dönəmində yaddaqalan hadisələrlə müşayiət olunur.

FİLMLƏRDƏ GÖZƏL OBRAZLAR YARADAN AKTYOR

Yaşı 90-ı haqlasa da, gənclik hərarəti var idi Mirzə Babayevin qəlbində. Oxuyurdu, rəqs edirdi, sifətindəki təbəssüm tamaşaçını ovsunlayırdı. Mirzə Babayev 2003- ci il yanvarın 13-də, ömrünün 90-cı ilində dünyasını dəyişdi. Bu istedadlı sənətkarın ömür kitabını vərəqlədikcə Azərbaycanımızın musiqi tarixinin böyük bir dövrü gözlərimiz qarşısında canlanır. Bu tarixin Mirzə Babayevlə bağlı səhifələri daha maraqlı, daha zəngindir. Mirzə Babayevin tərcümeyi-halı bir əsrə yaxın bütöv bir dövrü əhatə edir.

Azərbaycan Dövlət Konservatoriyasında təhsil alarkən müəllimi hələ o zaman hiss etmişdi ki, Mirzə Babayevin həm də aktyorluq istedadı var. Elə bu istedaddan irəli gəlirdi ki, o, onlarla filmdə obraz yaratmışdı. Mirzə Babayev, həm də gözəl kino aktyoru idi. Azərbaycan kinosunda onun yaratdığı rolların özünəməxsus gözəlliyi var. Bu rolların epizodik və yaxud böyük həcmi olmasının o qədər də fərqi yoxdur. Mirzə Babayev yaratdığı obrazı duyur, öz içindən keçirir və tamaşaçıya onu bütöv xarakter kimi təqdim edirdi. "Dərviş Parisi partladır" filmində Məstəli şahı oynayır. Kamil Rüstəmbəyovun bu filmində aktyor çox orijinal bir obraz yaradıb. Hətta bu vaxta kimi Məstəli şahın teatrdakı ifaçılarından da çox-çox irəli gedə bilib. Ümumiyyətlə, Mirzə Babayevin kino qəhrəmanları özünəməxsusluğu ilə seçilir. "Sevil", "Yenilməz batalyon" və onlarca digər filmlərdə aktyor yaddaqalan, gözəl obrazlara ekran həyatı vermişdir. Mirzə Babayevin artistizminə nikbin bir ruh hakim idi. Onunla işləyən rejissorlar deyirdilər ki, Mirzə Babayev işləyəndə heç yorulmaq bilmirdik. Çəkiliş meydançasında elə əhval-ruhiyyə yaradırdı ki, hamı məmnun qalırdı. Ekranda görünməsi ilə tamaşaçının ovqatına tamam yeni bir ruh gətirirdi. Bir sözlə, o yaratdığı obrazın əsl memarına çevrilirdi. "Onu bağışlamaq olarmı?" filmində Tərlanın mahnılarını, "O olmasın, bu olsun" filmində Məşədi İbadın bütün mahnılarını o yüksək koloritlə ifa etmişdir. Mirzə Babayevin müğənni kimi ifaçılığı ilə aktyorluğu ahəngdarlıq təşkil edirdi. "Dəli Kür" filmində Molla Sadığın qurduğu kef məclisi onun qeyri-adi səsi ilə yadda qalıb.

TALEYİNİN MAHNISINI OXUDU

Bu gün onun çəkildiyi filmlərə, televiziya verilişlərinə baxdıqca bu böyük sənətkara xalq məhəbbətinin, onun musiqimizin inkişafındakı xidmətlərinin canlı şahidinə çevrilirsən. Dünya və milli musiqimizin elmi əsaslarına yiyələnən Mirzə Babayev tezliklə Azərbaycan estradasının ulduzlarından birinə çevrilmişdi. Harda işləməsindən asılı olmayaraq, Mirzə Babayev milli musiqimizin təbliğatçısı idi. Onu yaxşı tanıyır və sevirdilər. "Limanlar", "Saçlarına gül düzüm", "Sən uzaq, yaşıl ada" mahnılarını onun ifasında dinlədikcə insan ruhu, qəlbi təmizlənib, nəğməli bir dünya yaşanılır. Bütün mahnılarını sevərək oxuyurdu, xüsusi ilə "Limanlar"ı. "Məni Mirzə edən o mahnıdır, o mənim taleyimin mahnısıdır. Bunun tarixdə qalmasını istəyirəm", - M.Babayev duyğularını belə dilə gətirmişdi. Doğrusu, bu gün insan Mirzə Babayevin yoxluğuna inana bilmir. Elə hiss edirsən ki, yenə də hansısa konsert salonunda səhnəyə çıxıb gənclik həvəsiylə öz nəğmələrini oxuyacaq. Yaxşı ki, bu nəğmələrin yazıldığı lentlər, videolar saxlanılır və onlar kifayət qədərdir.

Oxuduğu mahnıların hər birində nikbin, həyatsevər bir ovqat yaradıb. Yaşının ahıl dövründə belə qəlbində gənclik hərarəti var idi. Tofiq Quliyev, Emin Sabitoğlu kimi bəstəkarların mahnıları onun ifasında ədəbilik qazandı. Müğənni Azərbaycan musiqi tarixində nadir ifaçılardandır ki, mahnıları uzun illər repertuarında yaşamışdır.

İllər ötür, zaman dəyişir. Amma onun ifasında səslənən mahnıların gözəlliyi öz ovqatını qoruyub saxlayır. Xalq artisti ona verilən bu adı bütün yaradıcılığı boyu doğrultdu. Gözəl ifasını təmənnasız olaraq çoxsaylı dinləyicələrinə, tamaşaçılarına təqdim etdi. Zövqlü dinləyicinin qəlbində əbədi abidəsini yaratdı.

Nəzakət ƏLƏDDİNQIZI

ARXİV

Azərbaycanın hansı bölgələrində istirahət etmək daha ucuz başa gəlir?

"Ümumiyyətlə, iyun ayının əvvəlindən yay sezonu başlayıb. Yay sezonu da insanların ən çox istirahət etdiyi, tətilə çıxdığı sezondur". Bu fikirləri SİA-ya açıqlamasında Azərbaycan Turizm Assosiasiyasının İdarə Heyətinin sədri Əhməd Qurbanov bildirib.

Onun sözlərinə görə, yayda həm məzuniyyətlər olur, həm uşaqlar məktəbdən tətilə buraxılırlar: "Bu il aparılan monitorinqlər zamanı görürük ki, vətəndaşlarımız xaricdən çox daxili turizmə daha çox üstünlük verirlər. Həftəsonları otellərin dolu olması ondan xəbər verir ki, ölkəmizdə vətəndaşlarımız daxili turlardan istifadə edir. Ümumiyyətlə, hər bölgənin özünəməxsus təbiəti, turizm potensialı vardır. Həmçinin hər bölgədə müxtəlif seqmentdə həm istirahət mərkəzləri, həm də otellər fəaliyyət göstərir. Eyni zamanda, ictimai iaşə obyektləri, restoranlar fəaliyyət göstərir. Demək olmaz ki, bir bölgədə qiymətlər bahadır, digər bölgədə qiymətlər ucuzdur. Turistlərin getdiyi yerlərdə qiymətlər daha baha olur. Bu baxımdan da Şamaxı, İsmayıllı, Şəki bölgəsi, Quba, Qusar, Xaçmaz, eyni zamanda, Qax, Zaqatala, Balakən bölgəsinə turistlər daha çox səyahət edir. Ona görə də həmin bölgələrdə qiymətlər yay sezonuna görə normal olsa da, digər sezonlara görə nisbətən yüksək olur. İnsanlar öz büdcələrinə görə, istirahət yerlərində dincələ bilərlər. Sadəcə, araşdırma aparmaq lazımdır, həm də turizm şirkətləri ilə əməkdaşlıq etməlidirlər. Çünki turizm şirkətləri bölgədə olan istirahət mərkəzlərini, otelləri yaxşı tanıdığı üçün qiymətlər baxımından insanlara köməklik göstərirlər. Hər turist də öz büdcəsinə uyğun otellərdə gecələyərək istirahət edə bilərlər. Burada vacib deyil ki, beş ulduzlu otellərin qiyməti ucuz olsun. Çünki bilirik ki, dünyanın hər yerində beş ulduzlu otellərin qiyməti baha olur. Tövsiyə edərdim ki, bölgələrə səyahət etdikləri zaman fərdi evlərdən istifadə etsinlər, çünki bu, daha sərfəli olur. Kirayə qonaq evlərində qalmaq daha az xərclərə səbəb olur".

Abutel İlhamqızı

Bəhanə, bəhanə, bəhanə...

MƏTANƏT

Görəsən niyə biz bir bahənəyə bəndik? Məsələn, bu gün qiymətləri sürətlə bahalaşan ərzaq məhsulları fonunda bəhanələrimizdən danışaq. Onsuz da hamı şahiddir ki, qiymətlər hər gün durmadan-dayanmadan artır. Bunu çox tez-tez market və mağazalarda ərzaq məhsullarının qiymətlərinin dəyişməsi ilə müşahidə edirik. Bu, heç də təzə xəbər deyil, artıq alışmışıq. Bunu qoyaq bir kənara. Söhbət bəhanələrdən gedir. O bəhanələr ki, ticarətdə hər kəs bunu bir cür dəyərləndirir. Məsələn, qiymətlərə nəzarət olmadığından şəhərin bir başında şəkər tozu hazırda 1 manat 50 qəpiyə, bir başında isə 1 manat 95 qəpiyə satılır. Bu, bəhanədir. Yəni market sahibi eşidir ki, şəkər tozunun qiyməti qısa zaman kəsiyində 1 manat 30 qəpikdən 1 manat 50 qəpiyə qalxdı, o da qaldırır, həm də hər yerdəkindən fərqli qiymətə-1 manat 95 qəpiyə. Buna fürsətdən "səmərəli" istifadə də demək olar. Lakin bu, istehlakçılara qətiyyən sərf etmir. Yayın bu çağında, qışa mühəbbə, kompot ehtiyatı hazırlandığı bir dövrdə şəkər tozunun belə bəhanələrə düçar olması heç də xoşagələn hal deyil.

Ümumiyyətlə, şəhərimizin market, mağazalarında reyd keçirilsə, qiymətlərin dəyişik olduğu açıqca görünər. Maraqlıdır, qiymətlərə nəzarət edən nazirliyin bunlardan xəbəri varmı?

Sözgəlişi şəkər tozundan danışdıq, bütün növ ərzaq və qeyri-ərzaq məhsullarında qiymətlər sabit deyil. Bəlkə biz düz bilmirik, bu, belə də olmalıdır, şəhərin bir tərəfi ilə o biri tərəfində qiymətlər fərqlilik təşkil etməlidir. İnşallah, bunun üçün bir açıqlama verən tapılar.Vallah, ərzaq məhsullarını artıq kənd təsərrüfatı məhsullarına tay ediblər. Bazarda eyni meyvə-tərəvəz fərqli qiymətlərə satıla bilir, bu məlumdur. Ya istehsalçının özündən, ya da alverçidən aldığımız məhsullara onlar özləri qiymət qoyurlar. Təbii ki, buna da müəyyən nəzarət olarsa, yayın bu cırhacırında albalı 10, gilənar 5, gilas 3-4, ərik 3-4 manata satılmaz. Yenə bunu anlamaq olar ki, istehsalçı məhsuluna qiyməti özü qoyur, alverçi də "ucuz" aldığının üstünə qoyur... Bu, onların hamıya məlum bəhanəsidir ki, "vallah baha almışam, nə edim, belə satmalıyam ki, özümə bir şey qalsın".

Nə qədər bəhanə olar, nə qədər?.. İki-üç gün bundan əvvəl "Aİ-95" premium və "Ai-98" super markalı benzinin qiymətində artım baş verən an nə baş verdi? Quzu əti bahalaşdı, restoranlar menyuların qiymətini qaldırdılar. Elə həmin dəqiqənin içərisində. Bu da yeni bəhanə. Yəqin ki, benzinin qalxmasını bəhanə etdilər. Lakin bu benzin növünün nə quzu ətinin, nə də restoran menyusunun qiymətlərinin artırılması ilə əlaqəsi yoxdur. Quzu əti istehsalçısı ətin qiymətinin artmasını otun, yemin daşınma haqqı ilə bağlayırsa, nə dəxli? Restoran menyunun qiymətlərini qaldırırsa, bu da maraqlıdır. Qarşıda daha nələrin qiymətinin hansı bəhanələrin qurbanı olacağı da maraq doğuracaq. Daha maraqlısı isə bu bəhanələrə son qoyulanda olacaq. O da ki, İnşallah. İnşallah, deyək, gözləyək...

Başı aşağı məsələsi

Kişilər həmişə o qadınlara böyük hörmət bəsləyirlər ki, onlar başı aşağı olurlar. Yəni küçədə gedərkən ora-bura boylanmır, nəzərlərini yerə dikirlər. Kişilər düşünürlər ki, qadınlar bunu onların hörmətini qazanmaqdan ötrü edirlər. Lakin çox yanılırlar. Bu, əksər qadının damarlarından axan qanın tərkibindən irəli gəlir.

Həqiqətən də gözləri göydə gəzdirib harasa ilişib yıxılmaqdansa və yaxud ətrafdakı eybəcərlikləri görməkdənsə başı aşağı yola davam etmək hamısından yaxşıdır. Elə nənə-babalarımız, ata-analarımız da həmişə qız uşağını qarşısına əyləşdirib təlim-tərbiyə verəndə ilk sözləri bu olub ki, qız xeylağı başı aşağı olmalıdır. Bu, o demək deyil ki, başını o qədər aşağı dikəsən ki, ətrafı görməyib yıxılıb şikəst olasan, qarşıdan gələnlərlə toqquşub xəsarət alasan. "Başı aşağı ol" o mənada deyilirdi ki, gözlərinin nəzərini ehmalca aşağı dik. Bu, qadının yaraşığı, həqiqətən bənzərsiz keyfiyyətidir. Nəsihət dinləyən qızlar da böyüdükcə bu öyüdü qulaqlarında sırğa edib həyatları boyu nəzərlərini yerə endirməyə üstünlük verirlər.

Bəli, qadınların bu xüsusiyyəti də bizim cəmiyyətin kişilərinin çox xoşuna gəlib və onların dilində belə bir deyimə çevrilib: filankəsin qızı, filankəsin bacısı bilirsən necə başı aşağıdır. Ailə quranda da belə qızla evlənəsən. Hətta yaxın dost-tanışlarına da belə qızlarla ailə qurmağı məsləhət bilirlər.

Müasir cəmiyyətimizdə ta nənə-baba, ata-ana öyüdünü telefonlar əvəz edib. Küçədə-bacada, nəqliyyatda indi kişili-qadınlı əksəriyyət başı aşağıdır. Telefonlarda saatlarla vaxt keçirən insanlar var. O gün küçədə onlardan ikisinin toqquşmasının şahidi oldum. Biri qız, digəri oğlan idi. İkisinin də əlində telefon vardı, gözləri telefonda, sürətlə addımlayırdılar. Yəqin işə, harasa tələsirdilər. Bir-birilərinə necə çarpıldılar, deyə bilmərəm. Onu deyim ki, başladılar bir-birini günahlandırmağa. Qız oğlana dedi ki, korsan, oğlan da qıza dedi, qarşına bir bax da. Nə isə ki, uzun söz-söhbətdən sonra hərəsi öz yoluna davam etdi.

Nəqliyyatda da belə hadisələrlə tez-tez qarşılaşmaq olur. Bir də görürsən ki, diqqət o qədər telefonda, nəzərlər aşağıdadır ki, düşünürsən ki, bunlar yaxşı ki, yıxılıb şil-küt olmurlar.

Bu yaxınlarda bir qadın nəqliyyatda telefona o qədər dalıb qalmışdı ki, enəcəyi dayanacağı keçib getmişdi. Sonra da sürücü ilə əsəbi şəkildə danışmağa başladı. "Qarşıda bir yerdə saxlayın",- dedi. Sürücü isə "orada saxlaya bilmərəm",- deyəndə ortalığa dava düşdü. Mən müşahidə etdiyim üçün kimin haqlı, kimin haqsız olduğunu görürdüm. Lakin müşahidə etməsəydim, mən də digər sərnişinlər kimi heyrət içində onların hansının haqlı olduğunu aydınlaşdırmaqda çətinlik çəkəcəkdim.

Hələ o gün metroda, olardı dörd qız, hamısı birinin telefonunda nəyəsə baxır, ucadan gülürdülər. O qədər özlərinə qapılmışdılar ki, yolu kəsdiklərinin fərqində deyildilər. Camaat onların yan-yörəsindən bir təhər keçib o yana, bu yana hərəkət edirdi. Heç kim də dinmirdi. Düşündüm, ona görə dinmirlər ki, ağızlarını açıb haqsız olmaqdansa, susmaq qızıl qiymətinədir.

Nə isə, yenə mətləbdən xeyli uzaqlaşdım. Nə edim, deyir söz sözü gətirər. Bu başı aşağı olmaq məsələsi özündə xeyli mətləbləri cəm edir. Lakin mən tamamilə başqa mövzudan danışacaqdım, gör gəlib hansı söhbəti saldım ortaya.

Keçim mətləbə. Hə, doğrudan da başı aşağı olmaq gözəl keyfiyyətdir. Qız-gəlinin iffətidir. Elə buna görə də əsrlər boyu bu, öyüdə çevrilib, qızlarımıza tövsiyə olunub. Lakin kaş ki, o ata-babalarımız, nənə-analarımız sağ olardı, onlardan bir söz soruşardıq. Soruşardıq ki, qızları qarşınıza qoyub günlərlə "başı aşağı olun",- deyib bunu beyinlərinə yeridəndə, oğlanları heç bircə dəfə qarşınıza qoyub "küçədə, ictimai yerə tüpürməzlər" demisinizmi? Yəqin cavab belə olacaqdı ki, əlbəttə, demişik. Mən də inanıram ki, bu, onlara dəfələrlə tövsiyə olunub. Lakin yəqin bəzi nəzərləri göydə qadınlar kimi, tüpürcəkləri yerdə kişilər də var. Necə deyərlər, öyüdü bu qulağından alıb, o qulağından havaya ötürüblər.

Kaş ki, qalardı o nənə-babalar, görərdilər ki, "başı aşağı olun" dedikləri qadınlar yerdə əksər kişilərin murdar tüpürcəklərini görməkdən necə bezar olublar. Vallah görsəydilər, müasir dövrdə gözləri ətraflarda dolaşan, nəzərləri telefondan ayrılmayan qızları qınamazdılar da. Deyərdilər ki, yerə baxıb "ürəyin ağzına gəlincə", cəhənnəm göyə bax, eyib etməz.

Yəqin həmin nənə-babalar yerə tüpürən kişilərə də belə deyərdilər ki, "canınız gözünüzdən çıxsın". Başı aşağı qız-gəlini bəyənirdiniz, hörmət edirdiniz. Ta onları başı aşağı görməyəndə, qınamayın. Onlardan yox, özünüzdən küsün...

Mətanət MƏMMƏDOVA

"Qarşımızda duran hədəflərə çatacağıq"

"İşğaldan azad olunmuş ərazilərimizdə tikinti-quruculuq işləri sürətlə davam etməkdədir. Sevindirici hal ondan ibarətdir ki, artıq bəzi rayonlarımızda vətəndaşlarımızın köçürülməsi üçün lazımi şərait və infrastruktur formalaşdırılmışdır". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Ceyhun Əhmədli bildirib.

Onun sözlərinə görə, Azərbaycan dövləti azad olmuş rayonları xüsusi bir texnologiya ilə "smart city" və "smart village" konsepsiyası ilə yenidən qurur və bu olduqca innovativ bir yanaşmadır: "Biz bu yananaşma nümunəsini Zəngilan rayonunun birinci Ağalı kəndində görə bildik. Ağalı kəndi ən müasir standartlara uyğun olaraq abadlaşdırılıb, orada ən müasir texnologiyalardan istifadə olunur. Ağalı kəndinin timsalında bütün Qarabağımızın gələcəyini görə bilirik. Yəni Azərbaycan Qarabağın gələcək inkişafını ağıllı şəhər, ağıllı kənd konsepsiyaları əsasında formalaşdırmaqdadır. Bu çox böyük, qürurverici haldır. Azərbaycan dövləti çox qısa bir müddət ərzində həm torpaqlarımızın minalardan təmizlənməsi işini layiqincə həyata keçirir, həm də abadlıq-quruculuq işlərinin həyata keçirilməsinə nail olur. Azərbaycan öz imkanları hesabına bu işləri reallaşdırır. Təbii ki, bu da bizim gücümüzü bütün dünyaya nümayiş etdirir. Əminəm ki, ən qısa zamanda vətəndaşlarımızın Qarabağa qayıdışı ilə bağlı daha genişmiqyaslı addımlar atılacaq. Əhalinin hissə-hissə azad olunmuş ərazilərə köçürülməsi təmin ediləcək. Bundan sonra qarşımızda duran hədəflərə çatacağıq".

Abutel İlhamqızı

Təhmasib Novruzov

İnkişafımız mahnıların dilində...

Bəzi-bəzi ağzıgöyçəklər oturub-durub gileylənirlər ki, ay dadi-bidad, flan ölkə belə inkişaf edib, fılan ölkədə adamlar süd gölündə üzürlər, nə bilim flan ölkədə yollar şampunla yuyulur, flan ölkədə yollara asfalt əvəzinə mərmər döşənir, və sairə, və ilaxıra! Demokratiyadı, kim nə istəyir danışır, bunda işimiz yoxdu. Amma bu adamlara bir deyən lazımdı ki, çox yox, cəmi otuz il bundan əvvəli yadına sal, sonra başla bəzi-bəzi ölkələrin fantaziyalarından danışmağa.

Yox, əziz oxucum, bu dəfə otuz il əvvəlin çörək növbəsindən, çörəyin buğda unu əvəzinə mal yemindən bişirilib insanlara satılmasından, əczaxanalarda adi aspirini belə tapmağın müşkülə dönməsindən, adi bir xəbəri çatdırmaq üçün bəzən yüzlərlə kilometr yolu qət etmək zorunda qalmağımızdan, daha nələrdən, nələrdən söhbət açmaq fikrində deyiləm. Nə yaxşı ki, xalq özü də bilmədən öz yaradıcılığında, yəni folklorunda bu inkişafı çox gözəl təsvir edir! Başqa izaha ehtiyac olmadan həmin folkloru oxumaq kifayətdir ki, hardan hara gəldiyimizi dərk edə bilək. Zatən min illərin çox hadisələri həm şifahi yaradıcılığımızda, həm də yazılı ədəbiyyatımızda yaşadılıb, bu günümüzə gəlib çatıb. Və bu gün tarixin bəzi dönəmlərini olduğu kimi anlamaqda həmin yaradıcılıq nümunələri bizim istinad mənbəyimiz olur. Eləcə də son yüz ildə yaradılan, zaman keçdikcə dəyişilən, zamana uyğunlaşdırılan folklor nümunələri yaxın keçmişimizin inkişaf dövrünü çox gözəl əks etdirir. Bir nümunə ilə dediklərimi sübut etməyə çalışacam.

Ötən əsrin əvvəllərində avtomobilin təzə icad edildiyi vaxtlarda xalq bir mahnı yaradıb. Sözləri belə olub:

Ulaq, mulaq bilmirəm,
Faytona da minmirəm,
Əgər avto gəlməsə,
Bəy evinə getmərəm!

O zaman avtomobilin təzəcə icad edildiyi və Azərbaycanın da bəzi bölgələrində ən imkanlı adamların ala bildiyi bir zaman idi.

Əsrin ortalarında artıq çövbənöv avtomobillər istehsal olunmağa başladı və Azərbaycanda da bu maşınların hər növündən alıb istifadə etməyə başladılar.Bu dəfə xalq musiqisi yerində qalmaqla, həmin mahnının sözlərini dəyişdi və belə oxudu:

Pobeda, mobeda bilmirəm,
Moskviçə minmirəm,
Zim qapıya gəlməsə,
Bəy evinə getmərəm!

Əsrin sonlarında inkişafı görən xalq folkloruna yenidən əl gəzdirdi. Bu dəfə həmin mahnı belə oxunmağa başladı:

Jiquli, miquli bilmirəm,
Volqaya da minmirəm,
Qaz otuz bir gəlməsə,
Bəy evinə getmərəm.

Bu yaxınlarda Bakının möhtəşəm şadlıq evlərindən birində toy məclisində iştrak edirdim. Toyun şirin yerində, məclis əhli bəylə gəlini də ortaya alıb rəqs etdiyi bir vaxtda birdən-birə musiqi dəyişdi və üç dəfə sözləri dəyişən həmin mahnının musiqisi çalınmağa başladı. Müğənni də əlinə götürüb mikrofonu girdi meydana və bu dəfə təptəzə sözlərlə başladı ifa etməyə;

Toyota, moyota bilmirəm,
Mersedesə minmirəm,
Cip qapıya gəlməsə,
Bəy evinə getmərəm.

İndi bir məsləhətim var bu ağzıgöyçəklərə. Cəmiyyətdə boş-bekar gəzən adamlar həmişə, hər yerdə qeybət etməklə vaxtlarını keçirirlər. Bu məlumdu və bu da bir növ məşğuliyyət formasıdır. Qeybətinizi eliyin, nə qədər istəyirsiniz danışın. Amma arada bu xalqın folkloruna da göz yetirin. Sizin nə deməyinizdən asılı olmayaraq xalq yaradıcılığında gerçəklərə, yəni danılması mümkün olmayan həqiqətlərə istinad edir. Siz də yaxşı olar ki, danılması mümkün omayan həqiqətlərə istinadən xalqın yaratdığı folklora da arabir göz gəzdirəsiniz. Məncə pis məsləhət deyil!

Bəşəriyyətin xoşbəxt gələcəyi uşaqların qorunmasından, onların yaxşı tərbiyə olunmasından asılıdır. Axı bu günün uşaqları sabahın böyükləri, dolayısı ilə idarəçisidirlər. Sülhü təmin etmək üçün bütün dünya uşaqları arasında dostluq əlaqələrini qurmaq, bütün xalqlarının vəhdətini yaratmaq, uşaqlara sülhün nə demək olduğunu anlatmaq lazımdır. Bunun üçün uşaqlar arasında ümumi hisslər yaratmaq və xalqların sülh şəraitində yaşamaq istəklərini gücləndirmək lazımdır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.

Uşaqlarımızın gələcəyi, gələcəyimizin uşaqlığı

Uşaqlar və media: nəyi necə etməli?

Uşaq anlayışı, uşaqların mediada qorunması, uşaqların mediadan qorunması anlayışı, əslində, çox geniş mövzudur. Dünya əhalisinin üçdə iki payı uşaqlardır. Hər dövrün öz uşaqlığı, öz uşaq problemləri və həll yolları olub. Əslində, uşaq haqlarının müzakirəsi, sadəcə, onların təhlükəsizliyi yox, ümumilikdə dünyanın gələcəyinin təhlükəsizliyi deməkdir.

Mediada uşaq hüquqlarının müdafiəsi uşaq haqları mövzusu kimi çeşidli və mərhələli prosesdir. Media dünyanı səsli, görüntülü və yazılı tora salmış böyük bir hörümçəkdir. Media anlayışı yekdil fikir ifadə etsə də dinə, irqə, coğrafiyaya, dilə görə fərqli problemləri ola bilir. İnkişaf etmiş yeni dünya qaydalarına görə ortaq media anlayışı çox məhduddur və qaydalar hər ölkəyə görə dəyişə bilir.

Uşaq haqları və media mövzusunun da əslində ucu-bucağı yoxdur. Uşağın mediada necə, nə cür təmsil olunması, müzakirə edilməsi, yer alması uşaq haqları ilə uyğunlaşmalı, biri digərini tapdamamalıdır. Uşaqların ən çox istifadə etdiyi media növü olan televiziyaların üzərinə bu işdə çox məsuliyyət düşür. Günlərinin böyük hissəsini televizor qarşısında keçirən uşaqlar efirdə tərbiyələrin sağlamlıqlarına, psixoloji inkişaflarına zərər verəcək material görməməlidir.

Daha açıq desək, uşaqları mediadan qorumaq ehtiyacı duymaqdansa, uşaqları etibar edə biləcəyimiz bir media sistemi daha əlverişli olardı. Biz övladımız efirdə kimə, nəyə baxır deyə narahat olmamalıyıq, efirdə peşəkarlar var deyə övladımızın izləyəcəyi proqramlardan arxayınlıq hiss etməliyik. Amma çox təəssüf ki, bu gün dünya mediası təcavüzə məruz qalan körpələrin üzünü açıq nümayiş etdirəcək, adını aydın yazacaq vəziyyətə gəlib çıxıb...

Bizdən övladımıza, övladımızdan övladına...

Əslində, valideynsinizsə, bütün söhbətlərin sonu dönüb-dolaşıb uşaqlara gəlir. Ən vacib qərarlarımız onlar haqqındadır, ən ciddi planlarımız uşaqlarımızın barəsindədir, ən böyük arzularımız onların gələcəyi ilə bağlıdır. Ekspertlərin fikrincə, uşaqların istəklərini sıralasaq yalnız 5 faizinin istəyi maddi olacaq, yerdə qalan qisim istəklərin psixoloji-mənəvi olduğunu görərik.

Dövrün uşaqları fərqli düşüncədə, fərqli istəkdədir. İndi valideynlərin "yedirdim, içirdim, geydirdim, başqa nə lazımdır ki?" düşüncəsi ilə razılaşmır uşaqlar. İnsafən, dövrün bir çox valideynləri də bu məsələdə həssasdır, 20-30 il əvvəlki düşüncə indi yoxdur. İndi valideynlər uşaqla ünsiyyətdə daha ehtiyatlıdırlar, yaş dövrünə xas krizlərin nə olduğunu anlaya bilirlər, psixoloji gərginlikdə olan uşaqları ilə şiddət yolu ilə yox, anlayışla ünsiyyət qururlar.

Əgər valideynsinizsə bütün həyatınız özünüzdən nələri isə uşağınıza transfer etməklə keçir - diqqətinizi, qayğınızı, sevginizi, sağlamlığınızı və bu kimi bir çox şeyi ona ötürürsünüz. Hər uşağın böyüyərkən ehtiyacı olan bu duyğuları ona ötürmədikdə yalnız fiziki olaraq böyüyən, ruhən həmişə uşaq qalan insanlarla zəngin cəmiyyət formalaşır. Dolayısı ilə bizim ona verə bilmədiyimizi o da öz övladına verə bilməyəcək.

Hər uşağın şərəfli bir həyat yaşamağa haqqı və bu yolda ona hörmət göstərilməyə ehtiyacı var...

Uşaqlar nə istəyir? 5 şərt

Uşaqların birinci və təməl ehtiyacı qidalanma, sağlamlıq, təhsil kimi vacib ehtiyaclardır. Öncəlik təbii ki, ailəyə aiddir. Amma dövlətin öz kiçik vətəndaşlarının təməl ehtiyaclarını ödəmək öhdəliyi vartəhsil vermək, sağlamlıqla bağlı problemlərini həll etmək, uşaqpulu və ya sosial müavinətlə təmin etmək kimi.

Uşaqların ehtiyacı olan ikinci vacib amil şərtsiz sevgidir. Hər uşaq qeyd-şərtsiz sevgi ilə təmin olunmağa ehtiyac duyur. Doğulduğu andan etibarən bu sevgini hiss edən uşaq hər bir şəraitdə, hər bir vəziyyətdə onu şərtsiz sevən ailəsinin olduğunu bilməli, bunu bilərək böyüməlidir. Bu, onun özünə inamla böyüməsinə, həyata bağlanmasına dəstək olur.

Uşaqlar üçün üçüncü vacib amil güvən duyğusu, etibardır. Hər uşaq başına nəyin gəlməsindən asılı olmayaraq güvənli yerdə, ailədə olduğunu hiss etməli, özünü o evdə təhlükəsiz hiss etməlidir. Biz valideynlərin ən vacib vəzifələrindən biri də uşaqların təhlükəsizliyini ən dəqiq şəraitdə təmin etməkdir.

Lakin bəzən bizdən asılı olan və olmayan səbəblər olur, yetkin insan kimi bunun fərqində oluruq, lakin uşaqlar bizim kimi düşünməyə bilər və özünü təhlükədə hiss etdiyi zaman valideyninin dəstəyini almadığı üçün narahat ola bilər. Uşaqlar valideyninin onu bütün təhlükədən qoruduğuna əmin olduğu qədər onların yanında güvəndə olduğunu hiss etməyə də ehtiyac duyur və bunu onlara hiss etdirmək bizim borcumuzdur.

Dördüncü amil qayğı və diqqətdir. Bütün uşaqlar haqlı olaraq öz valideynindən bunu istəyir. Uşaqlar danışmaq, özünü ifadə edə bilmək, öyrənmək, qayğı göstərmək, sevmək kimi ilkin duyğuları məhz bu yolla- valideyninin ona qayğı ilə yanaşması nəticəsində öyrənir. Onu diqqətlə dinləmək, çəkdiyi şəklə diqqətlə baxmaq, onunla oynamaq, birlikdə vaxt keçirmək diqqət və qayğınmın ilk etaplarıdır.

Beşinci amil özünü təsdiq etməkdir. Uşaqlar bunu etməyi çox sevir. Yeməyini özü yemək istəyir, dişlərini kömək olmadan fırçalamaq istəyir, nə geyinəcəyini, bu gün hansı oyuncaqla oynayacağını özü seçmək istəyir. Bu, ilkin özünü təsdiq duyğusudur.

Təkuşaqlı ailələr milli genefond üçün ciddi təhlükədir

Azərbaycanda çoxuşaqlı ailələrin sayı getdikcə azalır. Artıq ailələr 1 və ya 2 uşaqla kifayətlənir. Bu vəziyyət dünyanın bir çox ölkəsində müşahidə edilir və hər ölkədə müxtəlif səbəb olsa da, əsas önə çıxan sosial-iqtisadi və mənəvi-psixoloji amillərdir.

Əslində, bu statistika gözlənilən idi. Çünki bütün dünya insanları pandemiya imtahanından sonra dünyaya uşaq gətirməyin məsuliyyəti altına girmək istəmirlər. Bizim kimi çoxuşaqlılığı sevən cəmiyyətlərdə əhalinin təbii artım tempi azalırsa, Qərb ölkələrində vəziyyətin hansı həddə çatacağını təsəvvür belə etmək ürküdücüdür.

Azərbaycanda təkuşaqlı ailələr olduqca az idi, hətta dövrümüzün ailələri də adətən 1-2 uşaqlı olur, halbuki normal ailə 3 uşaqdan başlayır. Lakin yaşadığımız çətin dönəm bir neçə uşağı təmin etməyin daha çox məsuliyyət tələb etdiyini bariz nümayiş etdirdiyi üçün bizdən asılı olmayan səbəblərə görə artıq ailələr 1-2 uşaqla kifayətlənməli olur. Gəlir kifayət qədər olmadığı, iş yerlərinin pandemiya dövründə bağlı olması, bütün dünyada bahalaşma müşahidə edildiyi üçün biruşaqlı ailələrin sayı getdikcə artdı.

Çoxuşaqlılığı necə stimullaşdırmalı?

Əgər uşaqpulu məsələsində tənzimləmə aparılsa, dövlət ailələrə uşağın təməl ehtiyaclarını ödəmək üçün çox da böyük olmayan yardımlar təşkil etsə insanlar dünyaya uşaq gətirməkdən bu qədər qorxmaz. Uşaqpulu ilə bağlı müzakirələr aparılır, doğrudur, lakin hələlik bir nəticə yoxdur. Əslində söhbət o qədər də yüksək məbləğdən getmir.

Əgər mexanizm işlənsə uşaqpulunu mərhələli şəkildə də tətbiq etmək olar, 1-3, 3-7, 7-18 yaş aralığına ayıraraq ehtiyaclara görə fərqli məbləğ təyin etmək mümkündür. Belə olduqda həm dövlət büdcəsinə yük düşməz, həm də ailələr az da olsa qayğıdan azad olar.

Dövlət uşaqlara ayrıdığı vəsait ilə vətəndaşının yanında olduğunu, təbii artımın ölkə üçün nə qədər vacib olduğunu anlatmış olar. Əgər vətəndaş dünyaya uşaq gətirməyin özündən başqa heç kimi maraqlandırmadığını düşünərsə, bu fikirdən daşınar və bu da dolayısı ilə təbii artıma təsirini göstərər.

Yeri gəlmişkən, Azərbaycanda çoxuşaqlı ailə kriteriyaları da yumşaldılmalıdır. Mövcud qanunvericiliyə görə çoxuşaqlı ailə 5-dən artıq, yəni 6 uşağı olan ailələr hesab edilir və dövlət bu halda onlara və uşaqların himayədarına sosial müavinət ödəyir. Lakin razılaşarsınız ki hazırda ölkəmizdə 6 uşaqlı ailə çox nadir rastlanır. Çoxuşaqlılıq meyarı yenidən müzakirə edilə, kriteriyalar yumşaldıla bilər. Bu, əhalinin təbii artım tempini stimullaşdıra bilər. Hesab edirəm ki bunda həm dövlət, həm cəmiyyət maraqlı olmalıdır.

Dövlət sağlam uşaqların, sağlam ailənin qarantıdır. Xalqımızın, dövlətimizin də gələcəti bundan asılıdır. Bunun üçün həm dövlət, həm cəmiyyət olaraq əlimizdən gələni etməliyik.

Lalə Mehralı

ARASDIRMA

SON SƏHİFƏ
SƏS
16 iyul
2022-ci il

Alla Puqaçova tanınmaz halda - illər öz sözünü deyir...

Rusiyalı müğənni Alla Puqaçova və onun yumorist həyat yoldaşı Maksim Qalkinin messencerlərdə yeni fotoları yayılıb. Qeyd edək ki, fotolar Rusiya haqqında sərt ifadələri ilə tanınan musiqiçi İntars Busulisin konsertində çəkilib. (...necə deyərlər,..bu da bir "statiya"-A. B.)

SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, bu barədə "Neopra, Lanet olsun" Telegram kanalı məlumat yayıb. Maraqlıdır ki, yaxınlarda onların uşaqları Liza və Harri ilə birlikdə İsraildən Latviyaya köçdükləri bildirilir.

Qeyd edək ki, internetdə Alla Puqaçovanın təzə fotoları yerləşdirilib. Fotolarda o tonlanmış üzlü görünür. "Popcake.tv" xəbər verir ki, Allanın əvvəlki görüntülərilə qarşılaşmaq demək olar ki, mümkün deyil.

Jurnalistlər qeyd edirlər ki, bu gün messencerdə yayılan görüntülərdə müğənninin geniş gülümsədiyi an lentə alınıb. Şəkil filtrsiz və həmçinin peşəkar işıqlandırma olmadan çəkilib. Nəticədə, şəkillərdə "bir məşhurun sifətindəki bütün pozuntular" aydın görünür. Paylaşımlara şərhlərdə şəbəkə istifadəçiləri Puqaçovanın şəkillərindən sözün əsl mənasında şoka düşdüklərini bildiriblər. Təbii ki, illər öz sözünü deyir...

Ağasəf Babayev

Ronaldo ərəblərin 275 milyon avroluq təklifini rədd etdi!

"Mançester Yunayted"in portuqaliyalı ulduz futbolçusu Kriştiano Ronaldo yüksək maaş vəd edilməsinə baxmayaraq, adı açıqlanmayan Səudiyyə Ərəbistanı klubuna transfer olunmaq istəməyib. Bu barədə ESPN məlumat yayıb. Sözügedən klub Ronaldoya 2 illik çıxış üçün ümumilikdə 275 milyon avro maaş verəcəyini bildirib. Lakin Ronaldo bu təklifi rədd edib.

Səudiyyə Ərəbistanı təmsilçisi transferə görə "Mançester Yunayted"ə isə 30 milyon avro ödəyəcəkdi. Qeyd edək ki, Ronaldo qısa müddətdə "Mançester Yunayted"dən ayrılmaq istəyir. O, ötən ilin yayında İngiltərə klubu ilə 2+1 illik müqavilə imzalamışdı.

15 yaşlı uşaq balıqdan zəhərləndi

Şabran rayonunda 15 yaşlı oğlan hisə verilmiş balıqdan zəhərlənib. Bu barədə SİA-ya Kliniki Tibbi Mərkəzin Mətbuat katibi Elnur Hidayətoğlu məlumat verib. O bildirib ki, rayon sakini, 2007-ci il təvəllüdlü Vüsal Mirzəgülov yaşadığı evdə hisə verilmiş balıq yeyəndən sonra səhhəti qəfil pisləşib.



"O valideynlərinin köməkliyi ilə Şabran rayon Mərkəzi Xəstəxanasına yerləşdirilsə də, müalicələr nəticə verməyib. Yeniyetmə ağır vəziyyətdəTəcili Tibbi Yardım maşını ilə Kliniki Tibbi Mərkəzin tabeliyindəki 2 saylı Klinik Uşaq Xəstəxanasına yerləşdirilib və süni tənəffüz aparatına qoşulub. Həkimlərin müdaxiləsindən sonra onun həyatını xilas etmək mümkündür. Hazırda uşağın vəziyyəti stabildir", -E. Hidayətoğlu deyib.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220

Bakıda kürəkən qayınatasının evini atəşə tutub

Bakıda kürəkən qayınatasının evini atəşə tutub. Daxili İşlər Nazirliyindən SİA-ya bildirilib ki, Binəqədi Rayon Polis İdarəsinin 40-cı Polis Bölməsinə iyulun 12-də Müşfiqabad qəsəbəsində yaşayan B.Hudamovun evinin divarına ov tüfəngindən 2 dəfə atəş açılması barədə məlumat daxil olub. Polis əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib.

Araşdırmalarla bu əməlin B.Hudamovun kürəkəni, Qobustan rayon sakini, əvvəllər məhkum olunmuş F.Dəmirovun xuliqanlıq zəmininde törətməsinə əsaslı şübhələr müəyyən edilib. Əməliyyat-axtarış tədbirləri nəticəsində F.Dəmirov polis əməkdaşları tərəfindən saxlanılıb. Ondan qanunsuz saxladığı lüləsi və qundağı kəsilmiş ov tüfəngi və 7 ədəd patron götürülüb. Araşdırma aparılır.